QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 142 (5614) 31 **iyul** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qәpik**

# 2018-ci il Azərbaycan üçün uğurlu il olacaq



Səh 4

## Son 15 ildə Azərbaycan dünyanın heç bir dövlətinə müyəssər olmayan sürətli inkişaf yolu keçib

5

Gənc əsgərlərin andiçmə mərasimi keçirilib



3

"Yaradıcılığıma verdiyi yüksək qiymətə görə Azərbaycan Prezidentinə minnətdarlığımı bildirirəm"



7

"Dindar" simasında dolaşan "agentlər" antimilli təbliğat aparmaqla heç nəyə nail olmayacaqlar



# "Azərbaycan Avropa ilə əlaqələrə böyük əhəmiyyət verir"

## *Prezident İlham Əliyev Avropa İttifaqının xüsusi nümayəndəsinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 30-da Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan-Avropa İttifaqı əlaqələrinə toxunaraq, bu yaxınlarda Brüsselə səfərini və Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskla keçirdiyi görüşünü məmnunluqla xatırlayaraq qeyd etdi ki, həmin səfər zamanı aparılan səmərəli danışıqlar və Azərbaycanla Avropa İttifaqı arasında "Tərəfdaşlıq prioritetləri" sənədinin paraflanması əməkdaşlığın gələcək inkişafı üçün önəmlidir. Prezident İlham Əliyev qeyd etdi ki, eyni zamanda, bu sənədin paraflanması Azərbaycanın Avropa ilə əlaqələrə böyük əhəmiyyət verdiyini bir daha nümayiş etdirdi. Azərbaycan-Avropa İttifaqı əlaqələri gündəliyinin geniş olduğunu bildirən dövlətimizin başçısı əməkdaşlığın uğurla inkişaf etdiyini dedi. Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan, eyni zamanda, NATO-nun etibarlı tərəfdaşıdır və bu təşkilat Azərbaycanın Əfqanıstandakı sülhməramlı əməliyyatlarda iştirakını yüksək qiymətləndirir.



Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar Prezident İlham Əliyevlə Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun görüşlərinin və Brüsseldəki tədbirlərin çox yaxşı səviyyədə keçdiyindən məlumatlı olduqlarını vurğuladı. Toivo Klaar Avropa İttifaqı-Azərbaycan əlaqələrinin genişləndiyini qeyd edərək, əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün yaxşı imkanların mövcud olduğunu dedi. Bu baxımdan qonaq Azərbaycanla Avropa İttifaqı arasında yeni sazişin yaxın zamanlarda imzalanacağına ümidvar olduğunu bildirdi.

Söhbət zamanı əməkdaşlığın perspektivləri, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər, nəqliyyat, ticarət, turizm sahələrində əlaqələrin inkişaf etdirilməsi ətrafında fikir mübadiləsi aparıldı.

# Beynəlxalq Media Forumunda iştirak etmiş türkiyəli jurnalistlər Bakı təəssüratlarından yazırlar

***Azərbaycan Xalq Cümhuriyyətinin 100-cü ildönümü və milli mətbuatımızın yaranmasının 143 illiyi münasibətilə iyulun 21-də Bakıda keçirilmiş Beynəlxalq Media Forumunda iştirak edən Türkiyə jurnalistləri ölkəmizə səfərlərinin təəssüratlarını oxucularla bölüşüblər.***

AZƏRTAC xəbər verir ki, Star, Yenişafak, Yeniakıt, Akşam, Aksutvhaber və digər mətbu orqanlarda maraqlı yazılar dərc edilib, forum barədə videomateriallar yayılıb. Jurnalistlər səfər təəssüratlarını sosial şəbəkələrdə də bölüşüblər.

"Yeni akıt" qəzetində mövzu ilə bağlı üç yazı dərc olunub. Yazılarda Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovla görüşdən, forumda müzakirə olunan aktual məsələlərdən bəhs olunur.



GÜNDEM akit 22 TEMMUZ 2018 PAZAR 09

**Türkiye medyasından Azerbaycan'a 15 TEMMUZ ÇIKARMASI**

Türkiye'de yayın yapan yerel ve ulusal medyadan 40 gazeteci Anadolu Yayıncılar Derneği'nin düzenlediği organizasyonla Azerbaycan'ın başkenti Bakü'de 15 Temmuz hain darbe girişimini anlatan dizi konferans ve etkinlik düzenledi.

HACI YAKIŞIKLI/BAKÜ

BURHAN: İLİŞKİLERİ DAHA DA GELİŞTİRECEĞİZ

"MEDYA ORTAK ÇIKARLARI GÖZETMELİ"

Azerbaycan Cumhurbaşkanı Yardımcısı Ali Hasanov Ankara Temsilcimiz Hacı Yakışıklı ile...

**El-Ezher'den aileyi kurtarma birimi**

KAHİRE

**Darbeye kalkışan hain, birilerinin piyonu**



akit

Gündem Siyaset Ekonomi Dünya Aktüel Spor Sağlık Eğitim Teknoloji Emlak Kadın - Aile Biyografi Web TV Tümü

SON DAKİKA!

ABD'nin tehdidi sonrası yükselen dolar düşüşe geçti

FETÖ'cünün son durağı noter oldu

Emekliye 3 maaş avans!

8 komiser yardımcısı hakkında gözaltı kararı

Bu aracın fiyatına şaşıracaksınız

Hamas'tan o saldırıya açıklama: Doğal tepki

Meteoroloji saat verdi... İstanbul için uyarı

**Türkiye medyasından Azerbaycan'a 15 Temmuz çıkarması**

Türkiye'de yayın yapan yerel ve ulusal medyadan 40 gazeteci Anadolu Yayıncılar Derneği'nin düzenlediği organizasyonla Azerbaycan'ın başkenti Bakü'de 15 Temmuz hain darbe girişimini anlatan dizi konferans ve etkinlik düzenledi.

Yazı boyutu: AA

HACI YAKIŞIKLI/BAKÜ

Türkiye'den gelen 40 gazeteci Azerbaycan'ın Başkenti Bakü'de 15 Temmuz'daki hain darbe girişimini anlatan bir dizi etkinlik düzenledi. Gazeteciler önce Türkiye Bakü Büyükelçilik Rezidansında düzenlenen yemekte Büyükelçi Erkan Özoral ile bir araya geldi. Büyükelçi Özoral, Türkiye ile Azerbaycan arasındaki ilişkilerin her alanda giderek arttığını

Bugünkü Akit

EKONOMİ

TL'yle ticaret kur riskini önleyecek

Türk Telekom'dan Tüm cihazlarınız için Kapsamlı Koruma
TT Güvenlik Paketi ile 10 cihaza kadar virüs koruması tek pakette
Türk Telekom
çağrı "Sınırsız Müşteri Mutluluğu"

Jurnalist Hasan Öztürkün "Yeni Şafak" qəzetində dərc edilən məqaləsində də türkiyəli jurnalistlərin Bakıda keçirdikləri görüşlər, forum barədə məlumat verilir.

Tanınmış jurnalist Emin Pazarcının "Akşam" qəzetində dərc olunmuş "Ayrılırmı könül candan..." adlı məqaləsində Azərbaycan Xalq Cümhuriyyətinin tarixi, Qafqaz İslam Ordusunun rəşadəti, Azərbaycan milli mətbuatının yaranması, eləcə də 2016-cı ildə Türkiyədə dövlət çevrilişinə cəhd zamanı Azərbaycan xalqının Türkiyə dövlətinin yanında olması ilə bağlı fikirlər yer alıb. Xatırladaq ki, forumda iştirak etmək üçün Türkiyənin 40-dan çox jurnalisti Azərbaycanda olub.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Ceyran Mahmudovanın Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru təyin edilməsi haqqında Sərəncam imzalayıb. SİA-nın məlumatına görə, Sərəncamda qeyd edilir ki, Ceyran Emin qızı Mahmudova Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru təyin edilsin.

***

Prezident İlham Əliyev Vüqar Səfərovun Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi ilə əlaqədar Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Mirsənani Seyidovun Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı təyin edilməsi ilə əlaqədar Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında Fərman imzalayıb.

# Emin Ağalarov: "Yaradıcılığıma verdiyi yüksək qiymətə görə Azərbaycan Prezidentinə minnətdarlığımı bildirirəm"



***Azərbaycanın Xalq Artisti, "Jara" Beynəlxalq Musiqi Festivalının təşkilatçılarından biri, tanınmış bəstəkar və müğənni Emin Ağalarov AZƏRTAC-a məxsusi müsahibə verib. Müsahibəni təqdim edirik.***

***- Bakıda artıq üçüncü dəfədir keçirilən "Jara" Beynəlxalq Musiqi Festivalı əvvəlki illərdən hansı xüsusiyyəti ilə fərqlənir?***

- Əvvəla, builki festivalın proqramı daha genişdir. Rusiyanın "Birinci" telekanalında dörd konsert günündən hər biri iki saat olmaqla 10-12 reportaj efirə veriləcək. Bu da son iki ayda "Birinci" telekanalda ümumilikdə 24 saat efir deməkdir. Bu, möhtəşəm bir işdir. Rusiyanın tanınmış simalarını Bakıya toplamaq mənim üçün çox xoşdur. "Jara" layihəsinin uğurlu alınmasına ürəkdən sevinirəm. "Jara" artıq böyük musiqi platformasına çevrilib.

***- Tamaşaçıları növbəti illərdə hansı yeniliklər gözləyir?***

- Biz hər dəfə yeniliklər edə bildik və festivala daha böyük uğur gətirdik. Artıq məşhur artistlərin yubiley gecələrini təşkil edirik. Leonid Aqutin, Valeri Meladze, Lybov Uspenskaya, Valeriya və Vladimir Presnyakovun yaradıcılıq gecələrini keçiririk. Növbəti illərdə, əlbəttə, daha geniş ideyalar üzərində düşünəcəyik. Daha maraqlı proqramlar hazırlayacağıq. "Jara" nın möhtəşəmliyi artıq mənim özümü belə təəccübləndirir.

***- Festivalın coğrafiyası getdikcə genişlənir. Maraqlıdır, "Jara"ya daha hansı ölkələrdən iştirakçılar cəlb oluna bilər?***

- Bəli, biz festivalın coğrafiyasını artıq genişləndirmişik. Festivalın fəxri qonaqları qismində xarici şoubiznesin tanınmış mütəxəssislərini dəvət etmişik. Məşhur italyan tenoru Alessandro Safina, əfsanəvi Stiven Siqal, İnqrid, Rusiya, Ukrayna, Gürcüstan və əlbəttə, Azərbaycan estradasından çoxlu sayda artistlər festivalda iştirak edirlər. Əfsanəvi Maykl Ceksonun oğlu Brendon Hovard səhnədə çıxış edir. Bu, böyük sürprizdir və o, ABŞ-dan gəlib. Arzum budur ki, gələcəkdə festivalda beynəlxalq gün olsun və bu möhtəşəm hadisə nəinki Rusiyanın "Birinci" kanalında, eləcə də xarici telekanallarda nümayiş etdirilsin. Hələlik bizim tərəfdaşımız "Birinci" kanaldır. Bu böyük yolu biz birlikdə gedirik. Biz bütün ilboyu hazırlaşmışıq. İdeyalarımız çoxdur, məqsədimiz "Jara"nı daha unikal etməkdir.

***- Öz repertuarınızda Azərbaycan bəstəkarlarına müraciət etməyi düşünürsünüzmü?***

- Musiqilər hər zaman məni tapır. Müəlliflər mahnılarını mənə göndərirlər. Diqqətimi çəkən mahnını ifa edirəm. "Gəl Bakıya qaçaq" mahnısını həmyerlimiz Bahh Tee yazıb. Mahnı nəzərimi cəlb etdi və mən ifa etdim. Beləliklə, mahnı hit oldu.

***- Bu yaxınlarda Azərbaycanın Xalq Artisti adını aldınız. Təəssüratlarınızı bilmək maraqlı olardı.***

- Bu ada layiq görülmək mənim üçün gözlənilməz oldu. Bu, artist və təşkilatçı olaraq "Jara" və digər tədbirlər vasitəsilə göstərdiyim xidmətlərə görə mənim sənətimə verilən yüksək qiymətdir. Belə yüksək qiymətə görə mən Azərbaycan Prezidenti İlham Əliyevə və onun ailəsinə dərin minnətdarlığımı bildirirəm.

# Dmitri Peskov: Azərbaycan möhtəşəm ölkə, Bakı füsunkar şəhərdir



Bakıda möhtəşəm musiqi bayramı - "Jara-2018" Beynəlxalq Musiqi Festivalı davam edir. Festivalı canlı izləmək üçün dünyanın müxtəlif ölkələrindən insanlar Bakıya gəliblər. Onların arasında tanınmış siyasi xadimlər də var. Belə simalardan biri də Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskovdur.

AZƏRTAC xəbər verir ki, festivalın ikinci gününün fəxri qonaqları sırasında olan Dmitri Peskov xanımı ilə qırmızı xalıdan keçib. Rusiya Prezidentinin mətbuat katibi aparıcının suallarını cavablandırarkən qeyd edib ki, Bakıda dəfələrlə rəsmi səfərdə olsa da, ilk dəfədir, buraya məzuniyyət vaxtında gəlib. O deyib: "Bu, xoşbəxtlikdir. Bakı gözəl şəhərdir".

"Jara" festivalı ilə bağlı təəssüratlarını bölüşən Dmitri Peskov rusiyalı müğənnilərin Bakıya, ecazkar Azərbaycana gəlmələrini çox gözəl təşəbbüs kimi dəyərləndirərək deyib: "Azərbaycan tarixən gözəl, çoxmilləti, bizim estradanın çox sevildiyi bir ölkədir. Bizim artistlər buraya böyük məmnuniyyətlə gəlirlər. Buna görə də bu, çox əladır. Bu, olduqca gözəl təşəbbüsdür. Çünki Azərbaycan möhtəşəm ölkədir, Bakı füsunkar şəhərdir. Bizim Rusiyanın ulduzları, buraya hətta bir neçə günlük belə, böyük həvəslə gəlirlər və çox zəngin təəssüratla qayıdırlar. Deməli, biz bir-birimizi unutmuruq. Müasir dünyada bu, çox vacibdir".

Əminliklə demək olar ki, üçüncü dəfə təşkil edilən "Jara" festivalı MDB məkanının ən çox sevilən və gözlənilən mədəni tədbirlərindən biridir. Mədəniyyət, musiqi xalqları bir-birinə daha da yaxınlaşdırır, insanlar arasında sülhü, sevgini və gözəl hissləri təbliğ edir.

# Cah Xalib: "Jara" kimi möhtəşəm tədbirlər xalqları bir-birinə daha da yaxınlaşdırır



"Jara" kimi möhtəşəm tədbirlər xalqları bir-birinə daha da yaxınlaşdırır. Festivaldakı ab-hava çox gözəldir. AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə müsahibəsində "Jara-2018" festivalının iştirakçısı, Cah Xalib adı ilə tanınan məşhur rep ifaçısı, prodüser və müğənni Bəxtiyar Məmmədov deyib.

Məşhur reper belə bir gözəl festivalın Bakıda keçirilməsindən qürur duyduğunu söyləyib. Festivalın yüksək səviyyədə təşkil olunduğunu bildirən Cah Xalib buradakı müsbət emosiyaların ətrafa şəfəq saçdığını vurğulayıb.

# "The Jerusalem Post" qəzeti: Erməni işğalı və "demokratiya": bunlar bir-biri ilə uzlaşırmı?

***Korrupsiyaya qurşanmış və cinayətkar Serj Sarkisyan rejiminin süqutundan sonra güman etmək olardı ki, Ermənistan-Azərbaycan danışıqlarında irəliləyiş baş verəcək, tərəflər öz ölkələrinin və xalqlarının gələcəyi üçün sülh barəsində razılıq əldə edəcəklər. Lakin məlum oldu ki, bu, illüziya imiş.***





AZƏRTAC xəbər verir ki, beynəlxalq münasibətlər sahəsində tanınmış israilli ekspert Arye Qut İsraildə ən nüfuzlu ingilisdilli nəşr olan "The Jerusalem Post" qəzetinin 29 iyul tarixli nömrəsində dərc olunmuş "Erməni işğalı və "demokratiya": bunlar bir-biri ilə uzlaşırmı?" sərlövhəli məqaləsində bu məsələdən bəhs edir.

Məqalə müəllifi qeyd edir ki, Ermənistanın baş naziri Paşinyan onun ölkəsi tərəfindən işğal edilmiş Xankəndində olarkən bəyan edib ki, münaqişənin tənzimlənməsinə dair danışıqlarda Dağlıq Qarabağ (Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal edilmiş regionu) bilavasitə iştirak etməlidir, çünki rəsmi Yerevan yalnız Ermənistanın adından danışacaq. Bundan əlavə, Paşinyanın fikrincə, Azərbaycan sərt aqressiv ritorikadan istifadə etdiyi və Ermənistan ərazilərinin işğal olunması barədə danışdığı bir vaxtda qarşılıqlı güzəştləri müzakirə etməyin mənası yoxdur.

Məqalə müəllifi yazır: "Son günlərdə rəsmi erməni təbliğatı Azərbaycanla Ermənistan arasında başlana biləcək müharibə qarşısında vahimə və qorxu dalğasını zəifləmək üçün dəridən-qabıqdan çıxır. Baş nazir Paşinyan açıq-aydın eyham vurub ki, o, münaqişənin dinc yolla nizamlanması barədə danışıqları davam etdirməyəcək. Ermənistanın yeni lideri özünün belə adlandırılan "erməni inqilabının demokratik lideri" obrazına və Qərbin Bakıya təzyiq göstərməsi üçün bu obrazdan istifadə etməyə ümid bəsləyir. Baş nazir Paşinyanın belə cəfəng və dayaz ümidləri onun qeyri-peşəkarlığını, strateji təfəkkürdən məhrum və böyük siyasət üçün tamamilə yararsız olmasını, həmçinin bu faktı göstərir ki, münaqişənin hərbi yolla həlli Azərbaycan üçün ən başlıca və həyati əhəmiyyətli probleminin həllinin yeganə üsuluna çevrilir".

Qutun fikrincə, Nikol Paşinyanın qəribə və proqnozlaşdırıla bilməyən, diplomatiyadan uzaq davranışı və demaqoqiyası üzündən qəribə bir vəziyyət yaranıb. İndi rəsmi Bakı real olaraq gözləyir ki, erməni tərəfi hərbi əməliyyatlara təhrikçilik edə bilər. Arye Qut yazır: "Paşinyanın yeni hökumətinin səriştəsizliyi və qeyri-peşəkarlığı şəraitində erməni inqilabının liderinin qeyri-ardıcıl və proqnozlaşdırıla bilməyən xarakteri, onun ilk səhv addımları, Cənubi Qafqaz regionunda real vəziyyətin nə dərəcədə amanabənd və mürəkkəb olduğunu əsla anlamaması göz qabağındadır. Tamamilə aydındır ki, Paşinyana və onu hakimiyyətə gətirmiş qüvvələrə, xüsusən Bakıdakı möhtəşəm hərbi paradın və Azərbaycanda genişmiqyaslı hərbi təlimlərin doğurduğu əks-səda fonunda kiçik bir "müzəffər" hərbi əməliyyat zəruridir. 2016-cı ilin aprel ayında Qarabağda hərbi əməliyyatların status-kvonu Azərbaycanın xeyrinə əhəmiyyətli dərəcədə və əsaslı şəkildə dəyişməsi ABŞ, Rusiya və Aİ ölkələri kimi dünya aktorlarının diqqətini dərhal cəlb etdi, onlar yekdilliklə tərəfləri bu problemi sülh yolu ilə həll etməyə çağırdılar". Məqalə müəllifinin fikrincə, Ermənistan Respublikasının indiki hərbi və siyasi rəhbərliyinin məntiqsiz və absurd bəyanatları sübut edir ki, onlar ciddi narahat olublar, əslində böyük qorxu, isterika və panika içindədirlər.

Arye Qut yazır: "Azərbaycan ordusu cəbhə xəttində hadisələrin hər hansı şəkildə inkişafına hazırdır. Ən qüdrətli silah sistemləri ilə təchiz olunmuş Azərbaycan silahlı qüvvələri Ermənistanın bütün mühüm hərbi hədəflərini və strateji kommunikasiyalarını qısa müddətdə məhv etməyə qabildir. Münaqişənin siyasi yolla tənzimlənməsinə nail olmaq üçün əvvəlcə işğalı dayandırmaq, sonra isə status-kvonu dəyişmək lazımdır. Münaqişənin həlli Ermənistanın özünün inkişafı üçün zəruridir və əgər Ermənistan bunda maraqlıdırsa, bu ölkə işğala son qoymalı və Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnaməni yerinə yetirməlidir.

Ermənistan əhalisinin əksəriyyəti, necə deyərlər, yaşamır, onlar sadəcə mövcuddurlar. Lakin bəzi səbəblərə görə, onlar özlərini fransızlarla və hollandlarla deyil, Eritreya və ya Somali sakinləri ilə müqayisə edirlər. Belə təsəvvür yaranır ki, indi Ermənistanda müəyyən iqtisadi artım başlanır, lakin bundan ötrü azı on il lazımdır. Görəsən Ermənistanda başa düşürlərmi ki, iqtisadiyyatının iflası və əhalinin kütləvi şəkildə ölkəni tərk etməsi məlum xoşagəlməzliklərin səbəbi deyil, onların nəticələridir?"

Məqalə müəllifinin fikrincə, Ermənistan problemlərin nəticələrinə qarşı yox, onun əsas səbəblərinə qarşı mübarizə aparmalıdır. Arye Qut yazır: "Bu gün Ermənistan hökumətinin atdığı addımlar, xəstəliyin səbəbini deyil, onun nəticələrini müalicə edən həkimin hərəkətlərinə bənzəyir. Həmin səbəb - Ermənistanın təcavüzkar xarici siyasəti, demək olar ki, bütün qonşu ölkələrə qarşı ərazi iddiaları və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmaması ilə bağlıdır.

Nəticə etibarı ilə bu amillər Ermənistanın regionda iqtisadi cəhətdən təcrid olunmasına gətirib çıxarıb: bu gün Ermənistanın həm Azərbaycanla, həm də Ermənistan ilə münaqişədə Azərbaycanın ədalətli mövqeyini dəstəkləyən Türkiyə kimi iri bazarla sərhədləri bağlıdır".

Qutun fikrincə, Nikol Paşinyanın son bəyanatları və onun siyasi davranışı erməni separatçıların və şovinistlərin kələyidir, çünki onların məqsədi özlərinin təcavüzünə və Azərbaycan ərazilərini işğal etmələrinə haqq qazandırmaqdır. Arye Qut öz məqaləsinin sonunda yazır: "Aşkardır ki, Ermənistanın indiki rəhbərliyi özünə "demokratiya" tərəfdarı imici qazandırmağa çalışır və ətəşkəs dövründə müəyyən edilmiş status-kvonu saxlamaq üçün və ya bundan da betəri, Dağlıq Qarabağda oyuncaq separatçı rejimin tanınmasına nail olmaq üçün "demokratiya" pərdəsi arxasında gizlənir. Onda belə bir sual yaranır: "demokratik dövlət işğalı müdafiə edərmi? Lakin regionda yaxın vaxtlarda baş vermiş hadisələr bir daha göstərdi ki, rəsmi Bakı regionda mövcud olan status-kvo ilə heç vaxt razılaşmayacaq və Ermənistan başa düşməlidir ki, Azərbaycanın səbri tükənib. Elə bir qırmızı xətt var ki, bu xətti keçəndən sonra geri qayıtmaq mümkün deyil. Beynəlxalq hüquqa əsasən rəsmi Bakı Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan ərazilərini nəinki müdafiə etmək, həm də bu əraziləri azad etmək hüququna malikdir".

# 2018-ci il Azərbaycan üçün uğurlu il olacaq

## *Son 15 ildə Azərbaycan dünyanın heç bir dövlətinə müyəssər olmayan sürətli inkişaf yolu keçib*

***Son 15 ildə Azərbaycan dünyanın heç bir dövlətinə müyəssər olmayan sürətli inkişaf yolu keçib. Təkcə bir fakta nəzər yetirək: Azərbaycan 15 il öncə, 1,8 milyard dollar valyuta ehtiyatına sahib idisə, bu gün həmin rəqəm 24 dəfə artaraq, 44,3 milyard dollara yüksəlib. Prezident İlham Əliyevin bu islahatlarının uğurlu gedişini şərtləndirən əsas səbəb onların təməl prinsiplərinin düzgün müəyyənləşdirilərək, hazırlanması və qlobal çağırışlardan lokal gerçəkliyədək bütün tələb-şərtlərə uyğunlaşdırılmasıdır.***



Prezident İlham Əliyev Nazirlər Kabinetinin ilin birinci yarısının yekunlarına həsr olunan iclasında görülən işləri belə dəyərləndirmişdir: "Əlbəttə ki, bizim inkişafımızın təməlində həm düşünülmüş siyasət, həm güclü iradə, eyni zamanda, güclü iqtisadiyyat dayanır. Biz güclü iqtisadiyyat qura bilmişik, bu gün heç kimdən asılı deyilik, özümüz öz taleyimizin sahibiyik və iqtisadi sahədə böyük uğurlar əldə etmişik. Son 15 ilin göstəriciləri bunu əyani sübut edir. İqtisadi baxımdan, 15 il ərzində Azərbaycan qədər inkişaf edən ikinci dövlət yoxdur. Hətta böhranlı illərdə də biz öz iqtisadi gücümüzü qoruya bilmişik".

Bu ilin göstəriciləri isə, onu deyir ki, həm əvvəlki illərdə, həm də bu il aparılan islahatlar müsbət nəticələr verir. Son altı ay ərzində ümumi daxili məhsul 1,3 faiz, kənd təsərrüfatı 7,6 faiz, qeyri-neft sektoru 2 faiz artıb. Qeyri-neft sənayesində 8,8 faiz artım qeydə alınıb. Bu, onu göstərir ki, qeyri-neft sektoruna qoyulan investisiyalar və sahibkarlara göstərilən dəstək öz bəhrəsini verir.

Ölkədə 67 min yeni iş yeri açılıb ki, onlardan 53 mini daimi iş yeridir. Azərbaycan iqtisadiyyatına 6 milyard dollar sərmayə qoyulub. İnflyasiya isə cəmi 3 faizdir. İnflyasiyanın aşağı səviyyədə olması, onu göstərir ki, ölkəmizdə makroiqtisadi sabitlik tam təmin edilir.

Əlbəttə ki, bütün bu uğurlu göstəricilər beynəlxalq reytiq agentliklərinin illik hesabatlarında da öz əksini tapır. Ötən il "Doing Business 2018" hesabatında Azərbaycan 8 pillə irəliləyərək, 190 ölkə arasında 65-ci pillədən 57-ci yerə yüksəldi. Aparılan davamlı iqtisadi islahatların məntiqi nəticəsi olaraq, Azərbaycan 8 pillə irəliləməklə yanaşı, Avropa və Mərkəzi Asiya regionu üzrə ən islahatçı 3 ölkədən biri kimi müəyyənləşdi. Bu hesabatda Azərbaycanın mövqeyi 10 indikatordan aşağıdakı altı indikator üzrə yaxşılaşdı: elektrik enerjisinin əldə edilməsi (3 pillə), əmlakın qeydiyyata alınması (1 pillə), kiçik investorların hüquqlarının qorunması (22 pillə irəliləyərək, 10-cu yer), vergilərin ödənilməsi (5 pillə irəliləyərək, 35-ci yer), müqavilələrin icrası (6 pillə irəliləyərək, 38-ci yer) və müflisləşmənin həlli (39 pillə irəliləyərək, 47-ci yer). Sözügedən beynəlxalq indeks tərəfindən Azərbaycanda aparılan həm hüquqi qanunvericilik, habelə, biznes mühitinin əlverişliyinin daha da yaxşılaşdırılması istiqamətində islahatlar məxsusi olaraq qeyd edilib. Bu, beynəlxalq reytinq agentliklərinin Azərbaycanda aparılan islahatlara xüsusi diqqət yetirdiklərini və izlədiklərini göstərir.

















Azərbaycanın mövqeyinin dünyanın ən mötəbər reytinqlərində irəliləməsi, bilavasitə Prezident İlham Əliyev tərəfindən aparılan kompleks iqtisadi islahatlar siyasətinə beynəlxalq ictimaiyyətin verdiyi yüksək qiymətdir. Ötən il Dünya İqtisadi Forumu tərəfindən nəşr olunan "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda da öz əksini tapdı. Azərbaycan növbəti dəfə reytinqdə irəlilədi. Ölkəmiz 137 dövlət arasında iki pillə irəliləyərək 35-ci yerdə qərarlaşdı. Həmçinin, həmin hesabatda Azərbaycan əmək bazarının səmərəliliyi üzrə 9 pillə irəliləyərək, 17-ci yeri tutdu. Ölkəmiz artıq 8 ildir ki, sözügedən hesabatda MDB ölkələri arasında 1-ci yerdədir.

Bir faktı xüsusi qeyd etmək lazımdır ki, hətta G20-yə daxil olan İtaliya, Rusiya, İndoneziya, Türkiyə, Hindistan, Cənubi Afrika Respublikası kimi ölkələr bu rəqabət indeksinə görə Azərbaycandan geridədirlər. Region ölkələrinə gəldikdə isə, qonşu Gürcüstan həmin reytinqə görə 67-ci yerdə, işğalçı Ermənistan isə 73-cü yerdə qərarlaşdı. Əlbəttə ki, bütün bunlar Prezident İlham Əliyevin rəhbərliyi ilə biznes mühiti üzrə aparılan uğurlu iqtisadi islahatların nəticəsidir. Faktiki olaraq, dünyanın iki ən nüfuzlu iqtisadi yönümlü hesabatında Azərbaycanın inamla irəliləməsi ölkəmizdə aparılan davamlı və sistemli islahatların uğuruna dünya ictimaiyyətinin verdiyi yüksək qiymətdir. Ölkəmizin reytinqinin yaxşılaşması Azərbaycana investisiya axını, iqtisadiyyatın rəqabət qabiliyyətinin artması, qeyri-neft ixracının genişlənməsi və yeni iş yerlərinin açılması deməkdir.

Qeyd edək ki, ötən il Azərbaycanın adı nüfuzlu "Standard-&Poor's" (S&P) beynəlxalq reytinq agentliyinin də hesabatında ön sıralarda qərarlaşıb. Belə ki, qurumun yaydığı məlumatda qeyd edilirdi ki, 2018-ci il Azərbaycan iqtisadiyyatında artım olacaq. Sənəddə 2019-2020-ci illərdə Azərbaycanda illik ümumi daxili məhsul istehsalının artımının 3,5 faiz səviyyəsində olacağı proqnozlaşdırılıb. 2019-cu ildə ÜDM-in 3,5 faiz, 2020-ci ildə də 3,5 faiz artacağı göstərilib. Bundan başqa, Azərbaycan iqtisadiyyatına yatırılan investisiyaların həcminin 2018-ci ildə 3,5 faiz, 2019-cu ildə 2,5 faiz, 2020-ci ildə isə 2,5 faiz artacağı qeyd edilmişdi.

Agentliyin hesabatında göstərilirdi ki, 2017-2020-ci illərdə Azərbaycanın xarici ticarət dövriyyəsində müsbət saldo qorunacaq. Belə ki, 2018-ci ildə ÜDM 12,7 faiz, 2019-cu ildə 14,3 faiz, 2020-ci ildə 14,8 faizə bərabər olacaq. Rusiyanın AKRA reytinq agentliyi yeni hesabatını açıqlayıb. Sənəddə bu il Azərbaycan iqtisadiyyatının 1,5 faiz, 2022-ci ildə isə ÜDM-in 3,2 faizədək artacağı proqnozlaşdırılır. Agentlik qeyd edir ki, 2016-cı ildə iqtisadiyyatın resessiyasından və 2017-ci ildə 0,1 faiz nominal artımdan sonra Azərbaycan iqtisadiyyatı 2017-2018-ci illərdə xaricdə mütərəqqi bərpa nümayiş etdirdi. Hesabatda bildirilir ki, 2018-ci ilin ikinci yarısında ölkə sənayesinin xammal hissəsində də canlanma müşahidə olunacaq. Sənəddə o da qeyd edilir ki, Azərbaycan qazının TANAP boru kəməri ilə Türkiyəyə, daha sonra Avropaya tədarükünü nəzərdə tutan "Cənub Qaz Dəhlizi" sisteminin nəql gücünün istismara verilməsi Azərbaycanın tədiyə balansını yaxşılaşdırmağa və iqtisadiyyatın xammal hissəsinin artım göstəricisini möhkəmləndirməyə imkan verəcək.

Bütün göstəricilərə əsasən, deyə bilərik ki, 2018-ci il Azərbaycan üçün uğurlu il olacaq. Təsadüfi deyil ki, artıq beynəlxalq reytinq də ölkəmizin vəziyyətinin yaxşı olduğunu göstərir və respublikamız daha yüksək yerlər tutmaqda davam edir. Bu, onu göstərir ki, Azərbaycan iqtisadiyyatı harmonik inkişaf etmiş və şaxələnmişdir. Bu da ölkədə tam müstəqil siyasətin aparılmasının bariz nümunəsidir.

***"Səs" Analitik Qrupu***



# Gənc əsgərlərin andiçmə mərasimi keçirilib

28 iyul 2018-ci il tarixdə Dövlət Sərhəd Xidmətinin Göytəpə şəhərində yerləşən hərbi hissəsində gənc əsgərlərin andiçmə mərasimi keçirilmişdir. Gənc sərhədçilər təntənəli şəkildə hərbi anda gətirildikdən sonra mərasim açıq elan edilmişdir. Dövlət himninin səslənməsi ilə başlayan mərasimdə şəxsi heyəti təbrik edən Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev Ulu Öndər Heydər Əliyevin dövlət sərhədlərimizin qorunması, Azərbaycan sərhəd mühafizəsinin formalaşması və inki-





şafındakı misilsiz xidmətlərini, böyük dövlət xadiminin müəyyənləşdirdiyi milli sərhəd strategiyasının Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi sayəsində sərhəd mühafizəsinin ən müasir tələblər səviyyəsinə yüksəlməsini xüsusi qeyd etmişdir. Dövlət Sərhəd Xidmətinin şəxsi heyətinin ölkəmizin ərazi bütövlüyünün bərpası üçün istənilən anda hər bir döyüş tapşırığını yerinə yetirməyə, işğal altında olan torpaqlarımızda Azərbaycanın suveren hüquqlarının bərpası uğrunda savaşa daim hazır olması xüsusi vurğulanmış, Vətən torpağının astanasında - dövlət sərhədində üçrəngli dövlət bayrağımız altında xidmət aparmağın hər bir Azərbaycan sərhədçisi üçün böyük şərəf olması qeyd edilmişdir.

General-polkovnik Elçin Quliyev Vətənə və dövlətə sədaqət andı içərək, müqəddəs sərhədlərimizi qorumaq məsuliyyətini öz üzərlərinə götürən gənc əsgərlərin hərbi anda daim sadiq qalacaqlarına və xidmətdə yüksək nəticələrə nail olacaqlarına əminliyini bildirmiş, onlara müvəffəqiyyətlər arzulamışdır.

Çıxış edən valideynlər yaradılmış şəraitə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmiş, övladlarını təbrik edərək, Vətən sərhədlərinin keşiyində ayıq-sayıq dayanmağı tövsiyə etmişlər.

Mərasim gənc əsgərlərin təntənəli marşla tribuna önündən keçidi ilə başa çatmışdır.

Andiçmə mərasimi başa çatdıqdan sonra Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev əsgərlərin valideynləri və digər ailə üzvləri ilə görüşmüş, onların övladlarının Vətəninə, dövlətinə faydalı vətəndaş, ləyaqətli insan, əsl sərhədçi kimi formalaşmasına Dövlət Sərhəd Xidməti tərəfindən ciddi önəm verilməsini, bunun üçün valideynlərin hərbi hissələrlə birgə fəaliyyətinin böyük əhəmiyyət kəsb etməsini və səmərəli olmasını bildirmiş və oğullarının hərbi andı qəbul edərkən keçirdikləri qürur hissləri münasibətilə hər bir valideyni təbrik etmişdir.

28 iyul 2018-ci il tarixdə Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının Horadiz və Lənkəran sərhəd dəstələrində də gənc əsgərlərin andiçmə mərasimləri keçirilmişdir.

*İ.ƏLİYEV*

## Zakir Həsənov: "Münaqişənin həlli üçün Ermənistan qoşunlarını torpaqlarımızdan qeyd-şərtsiz çıxarmalıdır"



İyulun 30-da Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, cəbhə xəttindəki hazırkı vəziyyətin müzakirə olunduğu görüşdə general-polkovnik Z.Həsənov vurğulayıb ki, Ermənistanın qeyri-konstruktiv mövqeyi münaqişənin nizamlanması ilə bağlı danışıqlarda irəliləyişin əldə edilməsinə başlıca maneədir.

T.Klaar Cənubi Qafqaz regionunda sabitliyin təmin olunması üçün münaqişənin tezliklə sülh yolu ilə həllinin vacibliyini qeyd edib. Qonaq Ermənistanın yeni Baş naziri Nikol Paşinyanın hazırda yürütdüyü siyasətin münaqişənin sülh yolu ilə həllinə yönəldiyinə ümidvar olduğunu bildirib. Diplomat, həmçinin Aİ-nin bu istiqamətdə danışıqların davam etdirilməsinin tərəfdarı olduğunu vurğulayıb. Müdafiə naziri diqqətə çatdırıb ki, Ermənistanın yeni rəhbərliyinin Azərbaycanın əleyhinə yönəlmiş hərbi ritorika xarakterli çıxışları, xüsusilə Baş nazir və müdafiə nazirinin övladlarının ölkəmizin işğal edilmiş ərazilərinə hərbi xidmətə göndərmələri bu hakimiyyətin də münaqişənin sülh yolu ilə həllində maraqlı olmamasına sübutdur.

General-polkovnik Z.Həsənov xüsusi qeyd edib ki, münaqişənin tezliklə həlli üçün Ermənistan beynəlxalq hüququn norma və prinsiplərinə əməl edərək ordusunun bölmələrini torpaqlarımızdan dərhal və qeyd-şərtsiz çıxarmalıdır.

## Erməni KİV-ləri: "Ermənistanda 20 illik hakimiyyət terror, cinayət və qorxu ilə idarə olunub"



Ermənistan KİV-ləri sabiq prezident Robert Köçəryanın həbsinin uzun müddətdir Ermənistanda qeyri-konstitusion fəaliyyət göstərən rejimin aradan qaldırılmasından xəbər verdiyini yazır. Bildirilir ki, Robert Köçəryan prezidentliyi dövründə konstitusiya quruluşunun devrilməsinə səbəb olub. Ölkə mətbuatı buna misal olaraq 1 mart hadisələrini göstərib. Robert Köçəryan xələfi Serj Sarkisyana da güc verib. Belə ki, Serj Sarkisyan 10 il ərzində hakimiyyəti devrilmiş konstitusiya quruluşu ilə idarə etdi.

Qeyd olunur ki, 1998-ci ildə Robert Köçəryan və siyasi tərəfdaşları seçki saxtakarlığı edərək 20 il müddətinə qanunsuz olaraq hakimiyyəti işğal etdilər. 2003-2004-cü illərdə Köçəryan hakimiyyətinə qarşı çıxanlar kütləvi şəkildə həbs olundular və sui-qəsdlərə məruz qaldılar. Robert Köçəryan və Serj Sarkisyan parlamentdə o, cümlədən ayrı-ayrı dövlət qurumlarında terror aktları həyata keçirdi. Bir sözlə, Ermənistanda 20 illik hakimiyyət terror, cinayət və qorxu ilə idarə olunub.

## Vüqar Bayramov: "İlk beşliyə daxil olmaq müsbət hal kimi qiymətləndirilməlidir"



"Azərbaycan MDB üzrə əməkhaqqının səviyyəsinə görə ilk beşlikdə qərarlaşıb. Azərbaycan üçün xüsusən 2015-ci ildə devalvasiyadan sonra yenidən MDB-də əməkhaqqı, həm də digər göstəricilər üzrə öz mövqeyini yaxşılaşdırması çox vacib idi". Bunu SİA-ya açıqlamasında iqtisadçı-ekspert Vüqar Bayramov deyib. İqtisadçının sözlərinə görə, 2017-ci il Azərbaycan iqtisadiyyatında strateji il oldu. 2018-ci ildə Azərbaycan yenidən sürətli addımını bərpa etdi: "2018-ci ilin birinci yarım ilin nəticələri ondan xəbər verdi ki, həm ümumi daxili məhsulda (ÜDM), həm də makro iqtisadi göstəricilərdə artım tempinə nail olunub. Nəticə etibarilə bu tempin də sosial sferaya, eləcə də əməkhaqqına transformasiyası müşahidə olunur. Təbii ki, ölkəmizin əhəmiyyətli səviyyəsinə görə MDB-də ilk beşliyə daxil olması müsbət haldır.

Xüsusilə nəzərə almaq lazımdır ki, növbəti illərdə Azərbaycanın yerinin daha da yaxşılaşacağı gözünür. Çünki iqtisadiyyatın stabilləşməsi və bütün beynəlxalq maliyyə qurumları tərəfindən də 2018-ci il daxil olmaqla növbəti illərdə iqtisadi artımın proqnozlaşdırılması orta aylıq əməkhaqqı tempinə də təsir göstərəcək. Bu həm dövlət, həm də özəl sektorda özün büruzə verəcək. Təbii ki, bu da ölkəmizin növbəti illərdə yerinin daha da yaxşılaşmasına səbəb olacaq. MDB-də əməkhaqqının səviyyəsinə görə ilk beşliyə daxil olmaq müsbət hal kimi qiymətləndirilməlidir".

Qeyd edək ki, Rusiyanın Milli Araşdırma Universitetinin Sosial Siyasət Tədqiqatları İnstitutu MDB ölkələri arasında əməkhaqqı reytinqini açıqlayıb. Reytinqin nəticələrinə əsasən, 2017-ci ildə əməkhaqqı səviyyəsi Tacikistanda 137 dollar, Qırğızıstanda 216,3 dollar olub. Bu, MDB və keçmiş sovet ölkələri arasında orta aylıq əməkhaqqı səviyyəsinə görə ən aşağı göstəricidir. Əməkhaqqının ən yüksək olduğu ölkə Rusiyadır. Burada orta aylıq əməkhaqqı 670,9 dollar təşkil edir. İkinci yerdə 459,1 dollarla Qazaxıstan, üçüncüdə 421,9 dollarla Belarus, 4-cü yerdə 306,7 dollarla Azərbaycan, 5-ci yerdə 308,4 dollar əməkhaqqı ilə Moldova, 6-cı yerdə isə 272,9 dollarla Ukrayna qərarlaşıb.





# Prokurorluq orqanları tərəfindən vətəndaşları narahat edən məsələlərin həllinə xüsusi diqqət və həssaslıqla yanaşılır

***İyulun 30-da Azərbaycan Baş Prokurorluğunda prokurorluq orqanları tərəfindən 2018-ci ilin birinci yarımilində "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş fəaliyyət istiqamətləri üzrə görülmüş işlərin vəziyyəti və bu məsələnin bölgə müşavirələrində müzakirələrinin nəticələrinə həsr olunmuş geniş əməliyyat müşavirəsi keçirilib.***

Baş Prokurorluğun mətbuat xidmətindən Trend-ə verilən məlumata görə, müşavirədə məruzə ilə çıxış edən Baş prokuror Zakir Qaralov xüsusi vurğulayıb ki, aprelin 11-də ölkəmizdə keçirilmiş azad, ədalətli və şəffaf prezident seçkiləri zamanı xalqımızın son illərdə görülən işlərə yüksək dəyər verməklə həyata keçirilən strateji inkişaf xəttinə, dövlət siyasətinin davamlılığına, təhlükəsizliyə, sabitliyə, əmin-amanlığa səs verərək cənab İlham Əliyevə yenidən etimad göstərməsi Heydər Əliyevin müəyyən etdiyi siyasi kursu, strateji inkişaf konsepsiyasını uğurla həyata keçirən dövlət başçısına şəksiz inam və etibarın məntiqi nəticəsidir.

Ölkəmizdə aparılan iqtisadi islahatların uğurlu nəticələri kimi 2018-ci ilin birinci yarısında "Cənub Qaz Dəhlizi"nin rəsmi açılışı, Ələt Beynəlxalq Dəniz Ticarət Limanının istifadəyə verilməsi, TANAP-ın açılışı, eləcə də Bakıda təntənəli hərbi paradın keçirilməsi, aprel döyüşlərindən sonra ordumuzun öz hərbi gücünü və qətiyyətini real şəkildə nümayiş etdirməsi nəticəsində Naxçıvanın Şərur rayonunun Günnüt kəndi və ətrafındakı mühüm strateji əhəmiyyətli yüksəkliklərin işğaldan azad edilməsi, müasir standartlara cavab verən böyük təşkilatçılıq səviyyəsində "Formula - 1 Avropa Qran-Pri" yarışlarının və digər mötəbər tədbirlərin keçirilməsi müstəqil Azərbaycan Respublikasının son 15 ildəki inkişaf göstəriciləri olmaqla, dövlət başçısı tərəfindən verilən bütün vədlərin uğurla yerinə yetirildiyini bir daha təsdiq edib.

Bildirilib ki, 2018-ci ilin birinci yarısında ölkə həyatının bütün sahələrində dinamik inkişaf yüksək templərlə davam edib, hüquqi islahatlar, böyük infrastruktur layihələri və sosial yönümlü proqramlar uğurla həyata keçirilib, vətənimizin iqtisadi qüdrətinin daha da möhkəmləndirilməsi, bütövlükdə Azərbaycanın və hər bir regionun hərtərəfli inkişafına, əhalinin layiqli həyat səviyyəsinin təmin edilməsinə istiqamətləndirilmiş dövlətçilik siyasəti öz müsbət nəticələrini verib. Davos Dünya İqtisadi Forumunun son hesabatına görə, Azərbaycan dünya miqyasında inkişaf edən ölkələr arasında inklüziv inkişaf indeksinə görə 3-cü, xalqın iqtidara dəstəyinə görə dünya miqyasında 20-ci, ümumi infrastrukturun inkişafına görə dünya miqyasında 26-cı, rəqabətqabiliyyətliliyinə görə 35-ci, yol infrastrukturunun inkişafına görə 36-cı yerdə olması müstəqil Azərbaycan Respublikasının son 15 ildəki inkişaf göstəricisidir və əldə edilən nailiyyətlərin əsasını xalqımızın ümummilli lideri Heydər Əliyevin müəyyənləşdirdiyi strateji xəttə uyğun olaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən müasir məzmunlu daxili və xarici siyasət tədbirləri təşkil edib.

Azərbaycan Respublikası prokurorluğu orqanları öz səlahiyyət hədləri daxilində digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə respublikamızın ayrı-ayrı bölgələrində, eləcə də Bakı şəhərində baş tutan və ölkəmizin ictimai-siyasi həyatında müstəsna əhəmiyyət kəsb edən bu tədbirlərin normal şəraitdə keçirilməsinin əsas şərtləri kimi ictimai-siyasi sabitliyin və əmin-amanlığın qorunması üzrə öz vəzifələrinin lazımi qaydada həyata keçirilməsini təmin edib.

Qeyd edilib ki, hesabat dövründə Azərbaycan Respublikası Prokurorluğu tərəfindən digər hüquq mühafizə orqanları, ilk növbədə daxili işlər, ədliyyə və məhkəmə orqanları ilə əlaqəli şəkildə ölkədə ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin daha da gücləndirilməsi, dövlət müstəqilliyinin, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində zəruri tədbirlərin görülməsi təmin olunub, prokurorluq orqanlarında hərtərəfli islahatlar prosesi yeni müstəvidə davam etdirilib, fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinin artırılması, mövcud çatışmazlıqların aradan qaldırılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilib.

Bildirilib ki, mütəşəkkil cinayətkarlığın təhlükəli təzahürlərindən olan korrupsiya cinayətlərinə qarşı mübarizənin tam yeni müstəviyə qaldırılması prokurorluq orqanlarının qarşısında duran ən əsas vəzifələrdəndir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi iradə, əzm və qətiyyəti hesabına reallaşdırılan dövlətçilik siyasətinin məntiqi nəticəsi olaraq ötən dövrlərdə olduğu kimi, 2018-ci ilin birinci yarısında da Azərbaycan Respublikasında korrupsiya və rüşvətxorluğa qarşı mübarizə tədbirləri uğurla davam etdirilib.

Bildirilib ki, "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı" korrupsiyaya qarşı mübarizə sahəsində güclü siyasi iradənin göstəricisi olaraq, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi, hüquqi və institusional islahatların davam etdirilməsi, əlaqəli dövlər orqanları ilə birlikdə korrupsiya şəbəkələrinin aşkar edilməsi istiqamətində prokurorluq orqanları qarşısında çox mühüm vəzifələr qoyub. Korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən mühüm qabaqlayıcı institusional tədbirlər çərçivəsində "ASAN xidmət" mərkəzlərinin fəaliyyətinin genişləndirilməsinin əhəmiyyəti xüsusi vurğulanıb.

Korrupsiya hallarına qarşı mübarizə işinin düzgün təşkilində 161 saylı "Qaynar xətt" əlaqə mərkəzinin əhəmiyyəti qeyd olunub. Baş idarə tərəfindən ölkə vətəndaşlarını ciddi narahat edən korrupsiya cinayətlərinin və hüquqpozmalarının yayıldığı idarəçilik və xidmət sahələrinin aşkar edilməsi, təqsirli şəxslərin ifşa edilməsi, korrupsiya hüquqpozmalarından əziyyət çəkən vətəndaşların hüquqlarının bərpa edilməsi məqsədilə vətəndaşlardan "Qaynar xətt" əlaqə mərkəzinə daxil olmuş bir sıra müraciətlər üzrə təxirəsalınmaz əməliyyat-istintaq tədbirləri həyata keçirilib. Belə ki, mərkəzə hesabat dövründə 1970 müraciət daxil olmuş, həmin müraciətlərin 16-sı üzrə Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət işləri başlanıb. Bildirilib ki, korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın zəruriliyi nəzərə alınaraq hesabat dövründə bu sahədə ixtisaslaşmış beynəlxalq qurumlar və digər ölkələrin müvafiq hüquq mühafizə orqanları ilə əlaqələrin daha da genişlənməsinə önəm verilib.

Rüşvətlə bağlı, vəzifə səlahiyyətlərindən sui-istifadə, vəzifə səlahiyyətlərini aşma, qulluq mövqeyindən istifadə etməklə mənimsəmə və ya israf etmə, qulluq mövqeyindən istifadə etməklə dələduzluq, vəzifə saxtakarlığı və sair faktlar üzrə 184 şəxs barəsində 115 cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün aidiyyəti məhkəmələrə göndərilib.

Məhkəmələrə göndərilmiş cinayət işləri üzrə vurulmuş 51 milyon 194 min manat ziyandan istintaq müddətində 16 milyon 578 min manatın ödətdirilməsi təmin olunub, qalan ziyanın ödətdirilməsi məqsədilə qanunla nəzərdə tutulmuş tədbirlər görülüb.

Hesabat dövründə özünü öldürmə və özünü öldürməyə cəhd faktlarına görə başlanılmış cinayət işlərinin ibtidai araşdırmasına prosessual rəhbərliyin və istintaqına nəzarətin gücləndirilməsi ilə bağlı görülmüş tədbirlər sayəsində bir neçə iş üzrə cinayət törətmiş şəxslərin məhkəmə məsuliyyətinə verilməsi təmin olunub.

Müşavirədə prokurorluq orqanlarında informasiya-kommunikasiya texnologiyalarının tətbiqi sahəsində səmərəliliyin artırılması məqsədilə zəruri tədbirlərin görülməsinin intensivləşdirilməsi, "Elektron Sənəd Dövriyyəsi" və "Elektron Cinayət" proqramlarının funksional imkanlarının və tətbiqi dairəsinin genişləndirilməsi istiqamətində sistemli tədbirlərin həyata keçirilməsi, beynəlxalq təcrübə nəzərə alınmaqla bu proqramların təkmilləşdirilməsinin təmin edilməsi barədə müvafiq tapşırıqlar verilib.

Diqqətə çatdırılıb ki, prokurorluq orqanları tərəfindən 2018-ci ilin birinci yarısında görülmüş işlərin vəziyyəti təsdiq edilmiş cədvələ uyğun olaraq bölgələr üzrə keçirilən əməliyyat müşavirələrində müzakirə edilib, Baş prokurorun müavinləri, Baş Prokurorluğun Kollegiya üzvlərinin sədrliyi və tabe şəhər və rayon prokurorluqlarının əməkdaşlarının iştirakı ilə Abşeron, Ağstafa, Astara, Tərtər, Hacıqabul, Qobustan və Zaqatala rayonlarında keçirilmiş əməliyyat müşavirələrində hesabat dövründə görülmüş işlərin real vəziyyəti, mövcud nöqsanlar və çatışmazlıqların yaranma səbəbləri hərtərəfli və prinsipial təhlil edilib, "Prokurorluq haqqında" qanunda nəzərdə tutulmuş fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinin artırılması, tabe struktur qurumların fəaliyyəti üzərində Baş Prokurorluğun nəzarətinin daha da gücləndirilməsi, tabe prokurorluqlarda xidməti, icra və əmək intizamının yüksəldilməsi üçün konkret tədbirlər müəyyənləşdirilib. Əməliyyat müşavirələrində qaldırılan və işin səmərəliliyinə mənfi təsir göstərən problemlərin aradan qaldırılması və həlli vacib məsələlərin tənzimlənməsi istiqamətində qarşıda duran konkret vəzifələr müəyyənləşdirilib və Baş Prokurorluğun əlaqədar struktur qurumlarına müvafiq tapşırıqlar verilib.

Müşavirədə 2018-ci ilin birinci yarısında prokurorluq orqanları tərəfindən görülmüş işlər və bu məsələnin bölgə müşavirələrində müzakirəsinin nəticələri barədə Baş prokurorun birinci müavini Rüstəm Usubov məruzə edib. Müzakirələrdə çıxış edən Baş prokurorun müavini Namiq Əsgərov Azərbaycan Prokurorluğunun yaranmasının 100 illik yubileyinə hazırlıqla əlaqədar görülmüş işlər və qarşıda duran vəzifələr, Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarənin rəisi İlqar Cəfərov Azərbaycan Respublikası Prezidentinin "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 10 fevral 2017-ci il tarixli sərəncamının icrası ilə bağlı prokuyrorluq orqanları tərəfindən görülmüş işlər barədə müşavirə iştirakçılarına ətraflı məlumat veriblər.

Əməliyyat müşavirəsinə yekun vuran Baş prokuror Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında ölkəmizdə həyata keçirilən quruculuq işlərinə, iqtisadi, sosial və siyasi sahədə aparılan islahatlara kölgə salan neqativ təzahürlərə qarşı daha ciddi mübarizə aparılması barədə tapşırıqlarını bir daha xatırladaraq, dövlət başçısının bu tələblərinin yüksək səviyyədə icrasına nail olmaq üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarına və bütün tabe prokurorluqlara, ilk növbədə Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinə korrupsiya hallarına qarşı mübarizənin gücləndirilməsi, bu neqativ təzahürlərin qarşısının alınması və onları doğuran səbəblərin aradan qaldırılması istiqamətində bundan sonra da sistemli, ardıcıl və qətiyyətli mübarizə tədbirlərinin görülməsi barədə göstərişlər verib. Eyni zamanda, prokurorluq orqanlarında xidməti fəaliyyətin vətəndaş məmnunluğunun təmin edilməsi prinsipi üzərində qurulmasının, müasir texnologiyaların tətbiqinin, əməkdaşların peşəkarlıq səviyyəsinin yüksəldilməsinin başlıca vəzifələr olaraq ardıcıllıqla həyata keçirilməsinin zəruriliyi vurğulanıb.

Əməliyyat müşavirəsində inam ifadə olunub ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə həyata keçirilən müasir məzmunlu dövlətçilik siyasətini hərtərəfli dəstəkləyən prokurorluq orqanları bundan sonra da digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə ictimai-siyasi sabitliyin və əmin-amanlığın qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, dövlət müstəqilliyinin, demokratik hüquq və azadlıqların etibarlı müdafiəsi üçün zəruri tədbirlərin görülməsini təmin edəcək.

## Hikmət Babaoğlu: Ölkəmizin informasiya məkanını informasiya terroruna məruz qoyanlara əsla meydan verməmək olmaz



Azərbaycan nəinki regionda hətta bütövlükdə dünyada insan hüquq və azadlıqlarının, din və vicdan azadlıqlarının ən yüksək səviyyədə təmin olunduğu bir ölkədir. Çox maraqlıdır ki, Azərbaycanı dini dözümsüzlükdə və din xadimlərinə qarşı sərt davranmaqda ittiham edən bir qrup radikal ünsür bu tolerant mühitdən sui-istifadə edərək əslində özləri kimi radikalları və terrorçuları müdafiə edirlər.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu bildirib. "Hələ bu azmış kimi üstəlik məsələni bir də siyasiləşdirərək siyasi hakimiyyəti də özlərinə görə şantaj edirlər. Ancaq bunu elə ibtidai formada edirlər ki, kimdən sifariş aldıqları və nə məqsədlə etdikləri çox aydın şəkildə görünür. Ona görə də nə həqiqi dindarlar, nə də cəmiyyətimizin ictimai fəal fərdləri əsla bu antiazərbaycan təbliğatına fikir vermirlər",-deyə Hikmət Babaoğlu vurğulayıb. Deputat qeyd edib ki, son vaxtlar sosial şəbəkələrdə aktivləşən bu informasiya terrorçuları əslində ölkəmizdə fiziki terroru həyata keçirənlərin informasiya dəstəkçiləridirlər və eyni mərkəzdən idarə olunurlar. Hədəf Azərbaycanın milli və dövlət maraqlarıdır, hədəf ölkəmizdəki inkişaf və sabitlikdir.

Yeni Azərbaycan" qəzetinin baş redaktoru deyib: "Ancaq bu da hələ hamısı deyil. İnformasiya terrorçularının əsas hədəflərindən bir də siyasi hakimiyyətdir. Dini məsələlərdə həmişə məzhəb kimi həssas məsələləri istismar edərək silaha çevirən radikallar siyasi məsələdə də Dağlıq Qarabağ probleminin həlli kimi həssas mövzunu silaha çevirməyə cəhd edirlər. Bu da təsadüfi deyil. Hazırda Azərbaycan iqtidarının uzunmüddətli hərbi-siyasi və diplomatik səyləri nəticəsində Dağlıq Qarabağ probleminin həlli ilə bağlı heç vaxt olmadığı qədər münbit şərtlər yaranmaqdadır. Siyasi prosesləri yaxından izləyənlər bunu yaxşı görürlər. Həmin dini radikalları gizlədən və himayə edən mərkəzlər isə bu problemin həllini əsla istəmirlər. Çünki problem həll olunarsa, onların Azərbaycana təzyiq rıçaqlarından biri əllərindən çıxar. Ona görə də din pərdəsi adı altında siyasi şantaj vasitəsilə aranı qarışdırmağa cəhd edirlər. Eyni zamanda, onların məqsədlərini ifşa edən informasiya vasitələrini xüsusi olaraq hədəfə alırlar. Yəni, fərdi qaydada ayrı-ayrı subyektləri susdurmaqla onları ifşa edən informasiya resurslarına dərs vermək istəyirlər. Ancaq Azərbaycanda bu mümkün deyil. Çünki kütləvi şüur belə məsələləri obyektiv dərk edəcək qədər kamildir. Ölkəmizdə savadlı və vətənpərvər dindarlar ordusu var ki, onlar da belə radikalların dini şüurumuzu manipulyasiya etmələrinə yol verməzlər. Ancaq əlbəttə, ölkəmizin informasiya məkanını informasiya terroruna məruz qoyanlara da əsla meydan verməmək olmaz".

## "Azərbaycan əleyhinə çirkin kampaniyalar aparanların qarşısında güclü xalq-dövlət birliyi dayanıb"



Təəssüfedici haldır ki, Azərbaycanda və ondan kənarda fəaliyyət göstərən bir sıra qruplar "milli", yaxud da "dini" təəssübkeş formasında maskalanaraq, ölkəmiz əleyhinə çirkin kampaniyalar aparmaqda davam edirlər. Bu fikri AZƏRTAC-a açıqlamasında "SƏS" Media Qrupunun rəhbəri, siyasi ekspert Bəhruz Quliyev bildirib. Onun sözlərinə görə, bu gün din pərdəsi altında var-gəl edən həmin qruplar sifariş xarakterli videomateriallar, şərhlər hazırlayaraq guya milli, dini azadlıqların pozulduğunu iddia edirlər. Lakin bir reallığı unudurlar ki, hazırda xidmət etdikləri radikal dini təşkilatlar bilavasitə Azərbaycanı istəməyənlərdir. Onlar vətən, dövlət, xalq amilini bir kənara qoyaraq məhz həmin qüvvələrə nökərçilik edirlər. Unudurlar ki, bu gün Azərbaycanın 20 faiz torpağı işğal altındadır və nökərçilik etdikləri dairələr bilavasitə Ermənistanla əlbirdir. Həmin Ermənistanla ki, Xocalı faciəsini törədib.

Müsahibimiz əlavə edib ki, bu gün Azərbaycan əleyhinə fəaliyyət göstərənlər hakimiyyətin Qarabağı qaytarmaq istəməməsi ətrafında sərsəm iddialarla çıxış edirlər. Halbuki təkcə 2016-cı ilin aprelində və bu ilin mayında ordumuz düşmənə zərbə endirərək torpaqlarımızın bir hissəsini işğaldan azad edib.

Azərbaycanın hüquqi, demokratik dövlət olduğunu vurğulayan ekspert bildirib ki, ölkəmizdə mövcud olan multikultural dəyərlər, o cümlədən milli, etnik dözümlülük dünyanın ən aparıcı ölkələrində belə mövcud deyil. Heç bir ölkədə Azərbaycanda olduğu kimi dəyərlər yoxdur. Ölkəmizin tarixi əsasları məhz belə təməllərə söykənib. Ona görə də ölkəmiz əleyhinə fəaliyyət göstərən radikal dindarlar və onların ağaları heç vaxt öz istəklərinə çata bilməyəcəklər. Onların qarşısında güclü Azərbaycan dövləti, bu dövlətin ətrafında birləşən güclü xalq amili dayanıb.

## Vüqar Rəhimzadə: "Dindar" simasında dolaşan "agentlər" antimilli təbliğat aparmaqla heç nəyə nail olmayacaqlar



Bu gün Azərbaycanda din-dövlət münasibətləri kifayət qədər normal səviyyədədir. Ana qanunumuz olan Konstitusiyaya görə də hər kəsin vicdan azadlığı var. Ölkə rəhbərliyi vətəndaşların bütün, o cümlədən bu hüququnun ən yüksək səviyyədə təmin edilməsi üçün hər cür şərait yaradır. Son illərdə istər paytaxtda, istərsə də bölgələrdə məscidlər əsaslı şəkildə təmir edilib, yeni məscidlər tikilib insanların istifadəsinə verilib. Xüsusi olaraq vurğulamaq lazımdır ki, hüquqi, dünyəvi, demokratik dövlət olan Azərbaycanda dini zəmində heç bir qarşıdurma yoxdur və dinin, din xadimlərinin hansısa formada sıxışdırılmasından söhbət belə gedə bilməz.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə bildirib. Vüqar Rəhimzadə qeyd edib ki, son günlər bəzi "maraqlı dairələr" sosial şəbəkələrdə din pərdəsi altında anti-Azərbaycan təbliğatı aparmağa cəhd edir, müxtəlif çağırışlar, videomüraciətlər yayımlayırlar. Guya ölkəmizdə insan hüquqları pozulur, din xadimləri sıxışdırılır. "Təbii ki, bütün bunlar absurddur və heç bir fakta əsaslanmır, məntiqə sığmır. Bu cür dezinformasiyaları yaymaqda məqsəd ölkəmizdəki daxili sabitliyi pozmağa cəhd etmək, insanların dini inanclarını istismar etməklə öz çirkin niyyətlərini həyata keçirməkdir. Ancaq ölkə ictimaiyyəti, ziyalılar hər zaman olduğu kimi, yenə də bu cür antimilli qüvvələrə layiqli cavab verirlər",-deyə "İki sahil" qəzetinin baş redaktoru vurğulayıb.

Vüqar Rəhimzadə qeyd edib ki, bu gün ölkəmizdəki tolerant, multikultural mühit, bütün sahələrdə əldə olunan uğurlar dostları sevindirdiyi kimi, düşmənləri də ciddi şəkildə narahat edir. YAP Siyasi Şurasının üzvü deyib: "Artıq bütün dünya Azərbaycanı multikultural məkan, tolerant ölkə kimi tanıyır, qəbul edir və bunu yüksək keyfiyyət kimi qiymətləndirir. Müxtəlif millətlərin, dinlərin nümayəndələri ölkəmizdə azad, təhlükəsiz, sülh şəraitində yaşayırlar. Bu insanlar heç bir ayrı-seçkiliyə məruz qalmadan dövlətin onlar üçün yaratdığı bütün imkanlardan maksimum səviyyədə yararlana bilirlər. Görünür bu mühit bəzi "qüvvələri" qıcıqlandırır, onları narahat edir. Sosial şəbəkələrdə "dindar" simasında dolaşan "agentlər" antimilli təbliğat aparmaqla heç nəyə nail olmayacaqlar. Xalq bu ünsürləri yaxşı tanıyır. Ölkəmizdə möhkəm təməllər üzərində qurulan ictimai-siyasi sabitliyi, xalq-iqtidar birliyini heç bir qüvvə poza bilməz".

## Xalqımızın və dövlətimizin birgə səyi din pərdəsi altında aparılan anti-Azərbaycan təbliğatın qarşısında sipərdir



Son vaxtlar sosial şəbəkələrdə din pərdəsi altında anti-Azərbaycan təbliğatının aparıldığını görürük. Müxtəlif statuslarda, rəylərdə və videomüraciətlərdə guya Azərbaycanda dini və milli azlıqların sıxışdırılması, dindarların hüquqlarının pozulması və s. kimi əsassız iddialar irəli sürülür. Dini öz məkrli planlarına alət etmək istəyənlər onu mənəvi, əxlaqi kamilliyə səsləyən yönlərindən "arındıraraq" siyasi müstəviyə çəkmək istəyirlər.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov bildirib. Fond rəhbəri qeyd edib ki, dinlər, o cümlədən İslam dini insanı onun yaradılış qayəsinə uyğun olaraq ucaltmaq istəyir. Dinin əsas hədəfi bütün daxili aləmi və davranışları ilə insandır. İnsanın şəxsiyyətini və mənliyini ucaldan, ona yüksək mənəvi-əxlaqi keyfiyyətlər aşılayan dini mahiyyətindən uzaqlaşdırmaq onun özünə ən böyük zərbədir.

M.İsmayılov qeyd edib ki, din tarixən xalqımızın milli birliyinin simvolu olub. Xalqımızın əsrlərin süzgəcindən keçərək formalaşan ictimai yaddaşı sahib olduğu dəyərlərin başqa məqsədlərlə istifadəsi önündə ən böyük maneədir. Dünyanın aparıcı sosioloji sorğu mərkəzlərinin araşdırmaları göstərir ki, bir çox ölkələrlə müqayisə edildikdə Azərbaycan cəmiyyəti dini və milli tolerantlıq baxımından onların əksəriyyətindən fərqlənir. Azərbaycan milli və dini tolerantlığa, məzhəblərarası qardaşlığa, dinlərarası dostluğa görə özünə xas yeri olan ölkədir. Bu ənənənin qorunması və inkişaf etdirilməsi son dərəcə vacibdir. Dövlətimizin bu sahədə gördüyü işlər göz qabağındadır. Prezident İlham Əliyevin uzun illər yürütdüyü siyasət milli və dini azlıqların hüquqlarının tam şəkildə qorunmasını, dini və milli tolerantlığın, dini və mənəvi dəyərlərin inkişafını təmin etməkdə davam edir.

İnsanların dini duyğularından istifadə edilərək din pərdəsi altında aparılan anti-Azərbaycan təbliğatın qarşısının hər zaman xalqımız və dövlətimizin birgə səyi ilə alınacağını deyən müsahibimiz vurğulayıb ki, xalqımızın ictimai yaddaşı və dövlətimizin gücü bu cür məkrli planların qarşısında daim sipər olacaq.

## Hicran Hüseynova: "Son illər ərzində qadın sahibkarlarının sayı 28 faizə qədər artıb"



"Azərbaycan cəmiyyətində qadınlar aparıcı rol oynayır". Bu fikri Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova deyib. H.Hüseynova bildirib ki, qadın ana kimi gələcək nəsli formalaşdırır. İnsanlığın necə olması qadının savadından, sosial statusundan asılıdır. Bu məsələ bizim ölkəmizdə hər zaman aktual olub. Məsələn, 1901-ci ildə bütün müsəlman dünyasında qızlar üçün ilk dünyəvi məktəb Bakıda yaradılıb. Həmçinin 1911-ci ildə Xədicə Əlibəyovanın redaktorluğu ilə ilk dəfə qadın mətbu orqanı yaradıldı. "İşıq" qəzeti qadınların hüquqlarının qorunması, onların maariflənməsi üçün bütün ziyalı vətəndaşları səfərbər etdi. 1918-ci ildə müsəlman Şərqində ilk dəfə olaraq Azərbaycanda qadınlara seçmək və seçilmək hüququ verilib.

"Gender siyasətinin gücləndirilməsi dövlət strategiyasının əsas istiqamətlərindən biridir. 1998-ci ildə Ulu öndər Heydər Əliyevin Sərəncamı ilə postsovet məkanında ilk dəfə Azərbaycanda Qadın Problemləri üzrə Dövlət Komitəsi təsis edilib. Prezident İlham Əliyevin Fərmanı ilə 2006-cı ildə bu komitənin səlahiyyətləri genişlənərək Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılıb"-deyən komitə sədri qadınların cəmiyyətin bütün sahələrdə, o cümlədən iqtisadiyyat və biznes sahəsində də fəal təmsil olunmalıdır.

"Son illər ərzində qadın sahibkarlarının sayı 28 faizə qədər artıb. Onların arasında holdinq və böyük maliyyə kompaniyalarının rəhbərləri var. Biz bu rəqəmlərin artırılmasında maraqlıyıq və ölkəmizdə qadın biznesinin inkişafı üçün böyük işlər görülür. Nümunə kimi Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı ilə birgə "Kənd və rayon yerlərində yaşayan qadınların iqtisadi və sosial həyatda iştirakının təşviqatı" texniki yardım, "Regionlarda sahibkarlığın inkişafına dövlət dəstəyi" layihələrini qeyd etmək olar"- deyə, komitə sədri vurğulayıb.

# 1 Avqust Azərbaycan Dili Günüdür

## Dil milli kimliyimizdir

***Dünya yarandığı ilkin dönəmlərdə insanlar bir-birinə fikirlərini işarələrlə, əl, göz və digər orqanların hərəkətləri ilə çatdırırdılar. Getdikcə bu işarə və hərəkətlər səslərlə, səslərin birləşməsindən yaranan sözlərlə əvəz olundu. Əsasını küləklərin vıyıltısından, yarpaqların xışıltısından, ləpələrin şırıltısından, dağların cingiltisindən, quşların, heyvanların səslərindən götürən bu anlaşma forması, zaman-zaman inkişaf etdi, mükəmməl ünsiyyət vasitəsinə çevrildi.***




Dünyanın inkişafı, insanların qəbilələşməsi, icmaların formalaşması özü ilə bərabər bu ünsiyyət vasitəsini də fərqləndirdi, anlaşma forması müxtəlifləşdi. Beləcə bəşəriyyətin ən mühüm ünsiyyət vasitəsi olan dil də müxtəlifləşdi, hər tayfanın, hər icmanın, hər etnosun öz səsli ünsiyyət vasitəsi - dili yarandı, formalaşdı və inkişaf etdi. Dünya dilləri sırasında ən qədim, ən zəngin dillərdən biri, türk dilləri ailəsinin ayrılmaz tərkib hissəsi olan Azərbaycan dili də min illər boyu formalaşdı, inkişaf etdi. Bugünkü zəngin, musiqili, təbiətdə mövcud olan bütün səslər dünyasını özündə əks etdirən Müasir Azərbaycan dili, məhz min illərin sınağından çıxmış, bu gün əlli milyondan çox insan toplumunun doğma ünsiyyət vasitəsinə çevrilmişdir. Təsadüfi deyil ki, dünyanın ən qədim yazılı abidələri, şifahi xalq ədəbiyyatı nümunələri içərisində Azərbaycan türkcəsində yaranmış əsərlər öncül yerlərdən birini tutur.

Keçmiş SSRİ-də, kommunist ideologiyasının tələbinə uyğun olaraq, dil haqqında danışarkən, ona üç sözdən ibarət tərif verilirdi: "Dil ünsiyyət vasitə-sidir!" Bu, qeyd etdiyimiz kimi, kommunist ideologiyasının qarşıya qoyduğu başlıca məqsədi - SSRİ-də yaşayan xalqların dillərini sıradan çıxarmaq, bütün xalqları vahid dildə - rus dilində danışmağa vadar etmək məqsədi daşıyırdı. Halbuki hər bir xalqın dili ünsiyyət vasitəsi olmaqla yanaşı, həm də həmin xalqın milli varlığının göstəricisidir. Bir az da dərinə getsək, dil hər bir xalqın milli kimliyidir, pasportudur!

Sadə bir misal: bu gün dünyada, demək olar ki, əksər millətlər özlərini sivilizasiyanın ən qədim xalqları kimi qələmə verirlər. Gəlin görək, hər hansı bir xalqın tarixini müəyyənləşdirmək üçün başlıca fakt kimi nəyi əsas götürürlər? Şübhəsiz, həmin xalqın dilində yazılmış müxtəlif dövrlərə və formasiyalara məxsus qədim yazıları! "Orxon-Yenisey", "Güntəkin" kimi qədim yazılı abidələr, Mahmud Kaşğarinin "Divanül-lüğətül-türk" kitabı, "Kitabi-Dədə Qorqud" kimi möhtəşəm söz - sənəti abidəsi və sonrakı dövrlərdə yazıb-yaradan şairlərin, yazıçıların əsərləri olmasa, Azərbaycan türklərinin qədim varlığını nə ilə sübut etmək olar? Maraqlı bir faktı qeyd etmək istəyirəm. Dünyanın ən inkişaf etmiş xalqlarının dilinin lüğət tərkibi min il ərzində əlli faizdən çox dəyişdiyi halda, bizim dilmizin lüğət tərkibi min ildə cəmi on faiz dəyişikliyə uğramışdır. Təkzibolunmaz bu fakt, onu deməyə əsas verir ki, xalqımız tarix boyu ana dilinə məhəbbətlə yanaşmış, mühafizəkarlıq nümayiş etdirərək, onun saflığını qorumuşdur. Baxmayaraq ki, xalqımız əsrlər boyu başqa xalqların - ərəblərin, farsların və rusların əsarəti altında yaşamaq məcburiyyətində qalmışdır. Bütün məşəqqətlərə baxmayaraq, Azərbaycan türkləri dilini, digər milli-mənəvi dəyərlərini qoruyaraq, bugünkü nəslə çatdırmışdır. Ulularımızın əzab-əziyyətlərə sinə gərib bu günə qədər yaşatdığı ana dilimizin varlığı, təəssüflə də olsa, qeyd etməliyik ki, indiki qloballaşan dünyada təhlükə ilə üz-üzədir.

Ola bilər ki, problemi bir qədər şişirdilmiş kimi düşünsün oxucu. Bəlkə də qarşılaşdığımız problemlər bir qədər kəskin ifadə işlətməyə səbəb olur. Ancaq bir həqiqətdir ki, əgər ziyalılarımız səsini qaldırmasa, dövlətin bu sahədə atdığı addımlara ciddi dəstək verilməsə, yaxın gələcəkdə belə bir problemin mövcudluğunu hər kəs hiss edəcək. Ulu Öndər Heydər Əliyev həm sovet dönəmində, həm də müstəqillik dövründə respublikaya rəhbərlik etdiyi zamanlarda ana dilinə, onun saflığının qorunmasına, inkişafına, işlənmə dairəsinin genişlənməsinə daim xüsusi önəm vermişdir. Bu yerdə Ulu Öndərin bir fikrini xatırlatmağı lazım bilirəm: "Azərbaycan xalqının dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir."

Ulu Öndərin alternativsiz siyasi kursunun müdrik və yaradıcı davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də bütün digər sahələrlə yanaşı, Azərbaycan dilinin qorunması və inkişafını daim diqqət mərkəzində saxlayır. Ölkəyə rəhbərlik etdiyi on beş il ərzində (2003 - 2018) Azərbaycan dili ilə bağlı iki Sərəncam və dillə bağlı bütün sahələri özündə ehtiva edən Dövlət Proqramı imzalaması Cənab Prezidentin ana dilinə nə qədər böyük önəm verdiyini göstərir. Ölkə başçısı 2015-ci ilin noyabr ayında Azərbaycan Milli Elmlər Akademiyasının yubileyindəki nitqində Azərbaycan dili ilə bağlı səsləndirdiyi tarixi əhəmiyyətli fikirlər isə, hesab edirik ki, hər bir azərbaycanlıya, xüsusilə, ziyalılara ünvanlanan ciddi mesajdır: "Əsrlər boyu Azərbaycan xalqını bir xalq kimi qoruyan bizim mədəniyyətimiz, incəsənətimiz, musiqimiz, xalçaçılıq sənətimiz və digər ənənələrimiz olubdur. Bizim bu sahədəki bütün fəaliyyətimizin əsasında Azərbaycan dili dayanır. Azərbaycan dili bizi bir xalq və millət kimi qoruyub. Əsrlər boyu biz başqa ölkələrin, imperiyaların tərkibində yaşadığımız, müstəqil olmadığımız dövrdə milli dəyərlərimizi, ana dilimizi qoruyub, saxlaya bilmişik. Azərbaycan dilinin saflığını qoruya bilmişik. Ona görə, bu gün, bəzi hallarda görəndə ki, dilimizə xaricdən müdaxilələr edilir və bəzi hallarda bu müdaxilələr Azərbaycanda dəstək qazanır, bu, məni, doğrudan da, çox narahat edir. Azərbaycan dili o qədər zəngindir ki, heç bir əlavə xarici kəlməyə ehtiyac yoxdur."

Ancaq təəssüflə qeyd etmək məcburiyyətindəyik ki, cəmiyyətin bütün təbəqələrində bu nümunənin şahidi olmuşuq ki, bu da həyacan təbili çalmağın vaxtı çatdığını deməyə əsas verir. Xüsusilə, dilin təbliğində, gənc nəslin ana dilinə münasibətinin formalaşmasında mühüm rol oynayan televiziya, radio proqramlarında, sosial şəbəkələrdə, film və seriallarda, reklam bazarında Azərbaycan dilinə, onun saflığına vurulan zərbələr, hesab edirik ki, hər bir ziyalını ciddi narahat etməlidir. Alqışa layiq haldır ki, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası bu sahəyə xüsusi önəm verir və hər il dilimizin saflığının qorunması ilə bağlı səkkiz-on layihənin maliyyələşməsinə qərar verir. Ancaq yenə də təəssüf ki, bu layihələrin icrasının nəticəsi olaraq aşkar edilən qüsurlar, irəli sürülən təkliflər əksər qurumlar tərəfindən laqeydliklə qarşılanır və lazımi tədbirlərin görülməsi üçün hansısa ciddi addımlar atılmır. AMEA-nın Dilçilik İnstitutu istisna olmaqla, bu sahəyə cavabdeh olan digər dövlət və özəl qurumlar problemlərin həllinə lazımi diqqət göstərmirlər. Bu isə, hesab edirik ki, Azərbaycan Respublikasının Konstitusiyasında dövlət dili kimi təsbit olunan Azərbaycan dilinə məsuliyyətsiz yanaşmanın təzahürüdür.

### Televiziya proqramları və dilimiz

Müasir dövrdə televiziyasız ailə təsəvvür etmək mümkün deyil. Demək, hər bir ailədə böyüyən uşaq valideynləri ilə yanaşı, daim televiziya proqramlarındakı çıxışların təsiri altında böyüyür. Bu baxımdan, mənəvi tərbiyə məsələlərini bir yana qoysaq, uşaqların danışıq dilinin formalaşmasında ana və ata ilə yanaşı, televiziyalar da aparıcı rol oynayır. Sadə bir misal: hansı ailədə rus kanallarına daha çox baxılırsa, həmin ailədə böyüyən körpənin də dili rus dili üzərində formalaşır. Yaxud Türkiyə kanallarına daha çox baxan uşaqların dilində Anadolu türkcəsində olan ifadələrə meyil yaranır. Eynilə də Azərbaycan televiziyalarında aparıcıların çıxışları gənclərin nitqinin formalaşmasında mühüm rol oynayır. Ona görə də, televiziya kanalları bunu nəzərə almalı və yeni nəslin ana dilində təmiz nitqinin inkişafında üzərlərinə böyük məsuliyyət düşdüyünü anlamalıdırlar. Bu yerdə maraqlı bir faktı oxucuların diqqətinə çatdırmaq istəyirəm. Sovet dönəmində "Soyuz" adlı Ümumittifaq Radiostansiyası var idi. Kommunist rejimi ölkədəki xalqların dilinə guya hörmətlə ya-

# 1 Avqust Azərbaycan Dili Günüdür

## Dil milli kimliyimizdir

naşıldığını göstərmək üçün belə bir radiostansiya yaratmışdı. 1960-70-ci illərdə həmin radiostansiyanın Azərbaycan bölməsində Azərbaycanın görkəmli qiraət ustası, diktor, respublikanın əməkdar artisti Aydın Qaradağlı çıxış edirdi. Həmin illərdə o zamankı Azərbaycan Televiziyasına Polşadan bir qadın məktub göndərir. Məktubun məzmunu, təxminən, belədir: "Mən Moskvada Lomonosov adına Universitetdə təhsil almışam. Tələbəlik illərində təsadüfən radioda eşitdiyim bir səs məni özünə cəlb etdi. Bu diktorun nə danışdığını anlamırdım, ancaq hər gün eyni vaxtda radionu açıb, bu səsə axıradək qulaq asırdım. Səsdəki ecazkarlıq və musiqililik məni heyrətə gətirirdi. Sonradan öyrəndim ki, bu, "Soyuz" Radiostansiyasında Azərbaycan bölməsinin diktoru Aydın Qaradağlı adlı şəxsdir. Mən universiteti bitirib Polşaya qayıdandan sonra bu səs üçün darıxmağa başladım. Ona görə də məktubla sizə müraciət etməyə qərar verdim. Xahiş edirəm, həmin şəxsin ifası olan bir kaset hazırlatdırıb, mənə göndərəsiniz". Dilimizi bilməyən bir polyak qızına, bəlkə də bir yox, minlərlə bu cür insanlara gözəl və səlis nitqi ilə Aydın Qaradağlı dilimizi necə sevdirib! Bu gün televiziyalarımızda Aydın Qaradağlı məktəbinin davamçıları olan diktorlarımız, aparıcılarımız, şərhçilərimiz olsa da, etiraf edək ki, bu məktəbin adına ləkə olan, Azərbaycan ədəbi dilinə hörmətsiz yanaşan, yaxud ədəbi dil normalarını öyrənməyə tənbəllik edən aparıcı, diktor və şərhçilər daha çoxdur. Görünür, bu da müstəqillik dövründə yaranmış demokratiya nəticəsində televiziya kanallarımızın sayının artması ilə bağlıdır. Televiziya rəhbərləri az-çox bələdçili danışan hər kəsi bu mühüm sahəyə işə qəbul edir. Nəticə də göz qabağındadır. Başlıca səbəb isə, fikrimizcə, universitetlərin jurnalistika fakültələrində ayrıca telejurnalist ixtisasının olmaması və televiziya aparıcılığı üçün hələ təhsil dövründə bu sahədə istedadı olan gənclərin seçilib hazırlanmamasıdır. Digər səbəb taleyinə teleaparıcılıq kimi şərəfli bir peşənin daşıyıcısı olmaq düşən gənclərin səhlənkar, məsuliyyətsiz münasibətidir. Əgər bu gənclər yuxarıda dediklərimizi yaxşı anlasalar, özlərində məsuliyyət hiss eləsələr, daim ədəbi dil üzərində öyrənməyə can atsalar, belə olmaz. Nəhayət, bir səbəb də var ki, onu da vurğulamağı zəruri hesab edirəm. Televiziya rəhbərləri ilə söhbətlər zamanı deyirlər ki, bəzi proqram - layihələrin sponsorları (yəni himayədarları - T.N.) şərt qoyurlar ki, verilişin aparıcısı filankəs olsun. Kommersiya tələblərinə tabe olmaq məcburiyyətində qalan televiziya rəhbərləri də onların şərtləri ilə razılaşmaq məcburiyyətində qalırlar. Bu isə, sözün həqiqi mənasında, imkanlı şəxslər tərəfindən ədəbi dilimizə zərbə vurulması deməkdir. Mənə elə gəlir ki, bütün bu səbəblərin aradan qaldırılması mümkünsüz deyil. Azərbaycanın televiziya proqramlarının, təxminən üçdə birində, bir ay ərzində apardığımız müşahidə zamanı on mindən artıq dil qüsurunun aşkar edilməsinin başlıca səbəbləri, yumşaq desək, ana dilinə hörmətsiz yanaşmanın bariz nümunəsidir.

Hesab edirik ki, jurnalistika fakültələrində ayrıca teleaparıcılar hazırlanmalıdır. Onlara görkəmli dilçi alimlər, televiziya aparıcılığı sahəsində özünü təsdiq etmiş görkəmli teleaparıcılar xüsusi kurslar keçməlidir. Televiziyalarda bu şərəfli peşəyə yönələn həmin gənclər gündəlik olaraq üzərlərində işləməli, peşələrinin məsuliyyətini dərk etməlidirlər. Verilişlərin himayədarlarının aparıcılıq məsələsinə qarışmalarına imkan verilməməlidir. Bütün televiziyalarda Natəvan Hacıyeva, Ofeliya Sənani, Sabir Ələsgərov, Eldost Bayramlı, Əli Məhəmmədoğlu və adlarını çəkmədiyimiz digər görkəmli aparıcılardan, eyni zamanda, dilçi alimlərdən ibarət məsləhət və ya tövsiyə qurumları yaradılmalıdır. Onlar ən azı, həftədə bir dəfə gənc teleaparıcılarla söhbətlər aparmalı, konkret qüsurlarını nəzərlərinə çatdırmalı və onların aradan qaldırılması üçün tövsiyələrini bildirməlidirlər. Hesab edirəm ki, televiziya kanallarının hər birinin imkanı çatar ki, heç olmazsa, bir nəfər ya dilçi alim, yaxud adlarını çəkdiyimiz, özünü təsdiq etmiş, tanınmış teleaparıcılardan birini ştata götürüb, televiziyanın dili üzərində daimi mütəxəssis nəzarəti həyata keçirsin. Nəhayət, Azərbaycan Milli Teleradio Şurası səlahiyyətlərindən istifadə edib, aparıcıların ədəbi dil normalarına əməl etmələri üçün müvafiq tədbirlər görməlidir. Məncə, bu dediklərimiz həyata keçərsə, teleaparıcıların ədəbi dil normalarına riayət etmələrində ciddi irəliləyişə nail olmaq mümkündür.

Dilimiz reklamlarda ana dilinin təbliği sahəsində digər mühüm rol oynayan sahə reklam bazarıdır. "Dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanununda "Dövlət dilinin xidmət sahələrində, reklam və elanlarda işlənməsi" ilə bağlı xüsusi maddə mövcuddur (Maddə7)". Bu maddədə reklamların verilməsi ilə bağlı tələblər də əksini tapmışdır: "Azərbaycan Respublikası ərazisində bütün xidmət sahələrində, reklam və elanlarda dövlət dili işlənilir. Əcnəbilərə xidmət göstərilməsi ilə bağlı müvafiq xidmət sahələrində dövlət dili ilə yanaşı, digər dillər də tətbiq oluna bilər. Zəruri hallarda reklam və elanlarda (lövhələrdə, tablolarda, plakatlarda və sair) dövlət dili ilə yanaşı, digər dillərdən də istifadə oluna bilər. Lakin onların tutduğu sahə Azərbaycan dilindəki qarşılığının tutduğu sahədən böyük olmamalı və Azərbaycan dilindəki yazıdan sonra gəlməlidir" (Maddə7.1.)".

"Reklam haqqında" Azərbaycan Respublikasının Qanunu"nun 4-cü maddəsinin 7-ci bəndində də qeyd olunur ki, reklamda "Dövlət dili haqqında" Azərbaycan Respublikası Qanunu"nun müddəalarına riayət edilməlidir. Reklamların yayımı ilə əlaqədar qanunverici sənədlərdə qeyd olunan tələblərin yerinə yetirilməsi ilə bağlı müşahidələrin nəticəsi, təəssüf ki, qənaətbəxş deyil. Bakı və Sumqayıt şəhərlərində aparılan araşdırma nəticəsində təkcə bu iki şəhərdə reklam və ünvan lövhələrində on minə yaxın dil qüsuru aşkar edilmişdir ki, bu da, hesab edirik ki, həyəcan təbili çalmağa ciddi əsasdır. Televiziya, radio dalğalarında, eləcə də, internet portallarında nümayiş etdirilən reklam çarxlarında da vəziyyət düzəlməzdir. Görünən odur ki, bu sahəyə cavabdeh olan səlahiyyət sahibləri ana dilimizin saflığının qorunması kimi taleyüklü məsələyə lazımi dərəcədə məsuliyyətlə yanaşmır və nəticədə həm yuxarıda adlarını qeyd etdiyimiz qanunların, həm də ölkə başçısının imzaladığı Dövlət Proqramının tələbləri kobud şəkildə pozulur.

Keçirilən monitorinqin nəticələrinin təhlili və mütəxəssislərin rəyləri nəzərə alınaraq, bu sahədə mövcud olan qüsurların və çatışmazlıqların aradan qaldırılması, reklam bazarında Azərbaycan ədəbi dil normalarına əməl olunması, bununla da, reklam bazarında dilimizin təmizliyinin qorunması məqsədilə təklif edirik:

-Reklam mətnlərində dilin bütün səviyyələri üzrə ədəbi dil normalarına ciddi şəkildə riayət olunmalı, orfoqrafiya qaydaları nəzərə alınmaqla yanaşı, leksik-üslubi və qrammatik normanın tələbləri də diqqət mərkəzində saxlanmalıdır;

-Monitorinqin nəticələrinə əsasən, başlıca problemlər reklam mətnlərinin tərcüməsi ilə bağlı olduğundan, bu sahəyə xüsusi diqqət yetirilməlidir;

-Reklam mətnlərində əcnəbi söz və ifadələrin işlənməsinin qarşısı alınmalı, buna yol verildikdə, "Reklam haqqında Azərbaycan Respublikası Qanunu"nun müvafiq müddəaları nəzərə alınmalı və cavabdeh şəxslər inzibati məsuliyyətə cəlb olunmalıdır;

-Bakı, Gəncə, Sumqayıt şəhərlərində reklam lövhələrində ədəbi dil normalarına əməl olunmasına nəzarət edən səlahiyyətli dövlət qurumları müəyyən edilməli və onların bu sahəyə nəzarət mexanizmi formalaşdırılmalıdır;

-Reklam agentliklərinin hazırladıqları reklam çarxlarında ədəbi dil normalarına əməl olunması ilə bağlı mövcud qanunlara uyğun müvafiq cəza tədbirlərinin görülməsi ilə bağlı konkret məsul qurumlar müəyyən edilməlidir. Film və seriallarda Azərbaycan dili, sirr deyil ki, bu gün incəsənətin ən geniş yayılmış qolu olan kino cəmiyyətin, xüsusilə, gənc nəslin formalaşmasında əhəmiyyətli rola malikdir. Xüsusilə, son dövrlərdə, dünyanın hər yerində olduğu kimi, Azərbaycanda da istehsalı artan teleseriallar! Araşdırma zamanı aşkar edilən saysız-hesabsız dil qüsurları, bu sahədə vəziyyətin nə qədər acınacaqlı olduğunu üzə çıxardı. Həm bədii filmlərdə, həm də teleseriallarda ədəbi dilin bütün normaları - fonetik, leksik və qrammatik normaları kobud şəkildə pozulur. 2000-ci ildən sonra istehsal olunmuş 46 bədii film, hər birindən 3 bölüm olmaqla 16 teleserial üzərində ekspertlər tərəfindən araşdırma aparılmış, nəticədə, gözlənildiyindən dəfələrlə çox - minlərlə dil qüsuru aşkar edilərək, qeydə alınmışdır. Aşkar edilən qüsurları, şərti olaraq, iki qrupa bölmək olar. Bunlardan birincisi və hər kəsi daha çox narahat edən əcnəbi sözlərdən istifadə, eləcə də, əcnəbi dildə danışıqların tərcüməsiz verilməsidir. Qəribədir ki, Azərbaycan dilində ata, ana, eynək, himayədar, dayanacaq, soyuducu, dondurma, ümumiyyətlə və s. kimi sözlər əvəzinə, papa, mama, açki, sponsor, astanovka, xaladennik, morojna, vapşe, obşim və s. əcnəbi sözlərdən istifadə olunur. Əlbəttə, filmdə xarakterin açılmasına xidmət edirsə, əcnəbi sözlərdən də istifadə etmək olar. Lakin indiki halda, bu sözlərdən istifadə olunması xarakterin açılmasına xidmət etmir. Həmçinin, qanunun tələbinə görə, hətta belə olduğu halda, həmin əcnəbi sözlərin tərcüməsi mütləqdir. Təəssüf ki, bu da yoxdur. Minlərlə əcnəbi, xüsusilə də, rus sözlərini filmlərdə yerliyersiz ifadə edən aktyor və ya filmin ssenari müəllifi, rejissoru bunun gənc nəslə hansı dərəcədə təsir etdiyinin fərqindədirlərmi, görəsən?

İkinci qrup qüsurlar isə dilimizin fonetik, leksik və qrammatik baxımdan orfoepik tələblərinin pozulması ilə bağlıdır. Xüsusi olaraq, vurğulamağı zəruri saydığımız bir məqama diqqəti cəlb etmək istərdik. Nədənsə, film və serialların tam əksəriyyətində ismin yiyəlik, yönlük və təsirlik hal şəkilçiləri təhrif olunaraq, tələffüz edilir. Yəni -ya, -yə əvəzinə -va, -və; -nın, -nin,-nun, -nün əvəzinə -vın,-vin,-vun,-vün; - nı,-ni,-nu,-nü əvəzinə -vı,-vi,-vu,-vü kimi ifadə olunur ki, bu da dilimizin qrammatik qaydalarının kobud şəkildə pozulmasıdır. Bu fakt, həm də onunla bağlıdır ki, tarixən dilimizdə işlədilən və məhz qeyd olunan hallarda istifadə olunan, qədim yazılı abidələrdə də rastlaşdığımız "sağır N" kimi adlandırılan səsin və onun hərfi işarəsinin dilimizin fonetikasından çıxarılmışdır. Hesab edirik ki, dilimizin tarixiliyini və saflığını qorumaq baxımından, həmin səsin və onun hərfi işarəsinin yenidən əlifbaya qaytarılması haqqında düşünməyə ehtiyac var. Ümumiyyətlə, dilimizin həm fonetik, həm leksik, həm də qrammatik qaydaları ilə bağlı da xeyli sayda mübahisəli məqamlar var və dilçi-alimlərin bununla bağlı elmi əsaslara söykənən araşdırmalarına və konkret təkliflərinə ehtiyac var.

Bütün bunlara baxmayaraq, inanmaq istərdik ki, bədii film və teleseriallarn istehsalında, eləcə də, televiziya proqramlarında, reklam bazarında yol verilən dil qüsurlarının, nəhayət, dilçilik elmi ilə bağlı mübahisəli məqamların aradan qaldırılması Azərbaycan dilinin saflığının qorunması baxımından mühüm məsələ kimi əlaqədar qurumlar tərəfindən nəzərə alınacaq. Bunu bizdən həm milli mənafelərimiz, həm mövcud qanunlar, həm də Azərbaycan Respublikası Prezidentinin 2013-cü ilin aprelində imzaladığı "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramının müddəaları" tələb edir.

**Təhmasib Novruzov**

# Ermənilər Azərbaycanın üstünlüyünü etiraf edirlər

*Hazırda Azərbaycan həqiqətləri, ölkənin iqtisadi qüdrəti, doğru- düzgün istiqamətdə və dinamik inkişafı şərtləndirən strategiyası bütün dünya ictimaiyyəti tərəfindən qəbul edilməkdədir. Azərbaycan imza atdığı strateji qlobal layihələrlə, istehsal gücü, idxal və ixrac potensialı ilə əməkdaşlıq imkanlarını, mütəmadi olaraq genişləndirir ki, bu da, öz növbəsində, ölkənin dünya miqyasında nüfuzunu, imicini artırır və söz sahibi olmasını şərtləndirir.*



İstər beynəlxalq təşkilatlar, demokratik institutlar, istərsə də nüfuzlu dünya dövlətlərinin Azərbaycana marağı təsadüfi deyil və nəzərə alsaq ki, ölkəmiz siyasi, iqtisadi, sosial və digər sahələrdə bütün tələblərə cavab verən strategiya yürüdür, bu marağı başa düşmək asandır. Ən qısa zaman kəsiyində dövləyçiliyini inkişaf etdirən Azərbaycan, əsrlərlə mövcud olan, uzun bir tarix boyu təşəkkül tapmış, nüfuz qazanmış, beynəlxalq miqyasda söz sahibinə çevrilmiş dünya dövlətləri ilə bir müstəvidə qərarlaşıb və bərabər hüquqa və nüfuza malikdir. Qeyd etdiyimiz kimi, ən qısa zamanda Qafqazın lider dövlətinə çevrilən bu ölkə, öz mövqeyi ilə bölgədəki digər dövlətlərdən müqayisə edilməyəcək dərəcədə fərqlənir və indi nüfuzlu dünya ölkələrinin Azərbaycana olan marağı heç də təəccüblü deyil, əksinə, tam məntiqi və başadüşüləndir.

Dövlət başçılarının, nümayəndələrin, siyasi ekspertlərin Azərbaycana rəsmi səfərləri, Prezident İlham Əliyevin dünyanın bir çox ölkələrinə dəvət olunması, əməkdaşlıq sazişlərinin imzalanması, qlobal məsələlərin müzakirəsi ölkəmizə olan marağı və Azərbaycanın söz sahibi olmasını təsdiqləyir. Hazırda ölkə başçısının Fransaya rəsmi səfəri dünya ictimaiyyətinin diqqət mərkəzindədir və bu səfərdən gözləntilər də çox böyükdür. Əsrlər boyu mövcud olan, dünya miqyasında özünəməxsus nüfuza malik olan Fransa kimi bir dövlətin Azərbaycana marağı fonunda bu səfərdən gözləntilərə hər kəs haqlıdır. Azərbaycan da, öz növbəsində, Fransanın, onun prezidentinin ölkəmizin münafelərini müdafiə edəcəyinə ümid edir və təsadüfi deyil ki, Cənab Prezident İlham Əliyev səfərdən əvvəl prezident Emmanuel Makrona göndərdiyi məktubda, Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsində şəxsən Prezidentin özünə və ATƏT Minsk Qrupunun həmsədr ölkəsi kimi Fransaya böyük ümid bağladığını vurğulayıb və beynəlxalq hüquq normalarına uyğun olaraq, ölkəmizin ərazi bütövlüyü çərçivəsində münaqişənin dinc və ədalətli tənzimlənməsini böyük səbirsizliklə gözlədiyini nəzərə çatdırıb.

## Artan siyasi, iqtisadi, hərbi qüdrətin, genişlənən imkanların, nüfuzun fonunda işğalçıların narahat olması, təşvişə düşməsi başa düşüləndir

Ölkəmizin nüfuzu artdıqca, siyasi, iqtisadi, hərbi qüdrəti və imkanları genişləndikcə, Azərbaycan əleyhinə çalışan qüvvələr bundan narahat olmaya bilməz. Ələlxüsus, ərazilərimizin bir hissəsini işğal və zəbt etmiş ermənilərin yuxusu çoxdandır ki, ərşə çəkilib və bu qədər inkişafın, artan siyasi, iqtisadi, hərbi qüdrətin, ümumiyyətlə, hər bir sahədə genişlənən imkanların, nüfuzun fonunda işğalçıların narahat olmasını, təşvişə düşməsini başa düşmək çətin deyil. Hətta ermənilərin, erməni ekspertlərinin aqressiv reaksiya verməsi də gözləniləndir. Çünki işğalçılar çox yaxşı başa düşürlər ki, iqtisadi və hərbi qüdrətə malik Azərbaycan hər an Ermənistan üçün real təhlükədir və bu, ermənilərin istənilən anda Qarabağın işğal altında saxladıqları torpaqlardan, hətta İrəvandan belə məhrum olmaları deməkdir. Məhz bu baxımdan işğalçı dövlətin, ümumilikdə, ermənilərin və hətta onların havadarlarının Azərbaycanın uğurlarını həzm edə bilməməsi, inkişafı və artan imkanlarından keçirdikləri təşviş, bütün bunlara görə nümayiş etdirdikləri aqressiya onlarda yaranan xof və qorxunun təzahürüdür. Bütün bunlar isə, öz növbəsində, təsdiq edir ki, Ermənistan Azərbaycanla hesablaşmaq məcburiyyətində qaldığını artıq çoxdan başa düşüb və bunun fərqindədir.

## Azərbaycanın çox geniş miqyasda resurslara malik olması, mövqeyini möhkəmləndirməsi açıq şəkildə etiraf olunur

Bəzən bu aqressiyanın altında, sətiraltı da olsa, bir etiraf gizlənir. Məsələn, erməni politoloqu Anuş Sedrakyan bir növ həyəcan təbili çalır və qeyd edir ki, "Avropa ölkələri münasib və qeyri-münasib bütün yerlərdə müttəfiqlər arayır. Buradan belə bir sual doğa bilər, bu müttəfiq niyə Ermənistan deyil? Çünki Avropanın qarşısındakı problem hüquqi, yaxud demokratik məsələlər planında deyil, qaz, energetika, iqtisadiyyat və hərb planında durur. Amerika bazarı məhdudlaşandan sonra bazar uğrunda mübarizə gedir, buna görə də, Avropa tərəfdən elan edilən dəyərlərə uyğun gəlməyən hərəkətlər görürük. Bu, ABŞ-da prezident seçkilərindən sonra başlanmış ümumi tendensiyadır. Hazırda Azərbaycanın öz yerini tapacağı əhatəli yerdəyişmələr baş verir, çünki bu bazara gətiriləcək resursa malikdir". Bu fikirlərlə çıxış edən Sedrakyan, əslində, Azərbaycanın çox geniş miqyasda resurslara malik olması, mövqeyini möhkəmləndirmək imkanları və reallıqları barədə açıq şəkildə etiraflar edir. "Biz öz bazarımızı Rusiyada axtarırıq, amma mən bu qədər müddət ərzində, bir dəfə görməmişəm ki, Rusiya Ermənistana səmərəli təklif versin və Rusiyanın verə biləcəyi yeganə şey - müharibəyə təhrik etməməkdir"-deyən A.Sedrakyan nə qədər ört-basdır etməyə çalışsa da, qıcıqlandığını və qısqanclığını gizlədə bilmir.

Əksər hallarda isə tam açıq-aşkar, aydın şəkildə etiraflara rast gəlinir və bu da, onu təsdiq edir ki, ermənilər dalana dirəndiklərinin fərqindədirlər və Azərbaycanın müqayisə olunmayacaq dərəcədə üstün olduğunu dərk edirlər. Fransa Strateji Araşdırmalar Mərkəzinin eksperti, politoloq Kayts Minasyan "1-in am"la söhbətində qeyd edib ki, Fransa Azərbaycana sputnik satıb və o, sərhəddə baş verənləri müşahidə edə bilir. Mərkəzin eksperti, xüsusilə vurğulayıb ki, sputnik fransızlar üçün silah sayılmasa da, Azərbaycan üçün silahdır və eyni zamanda, Ermənistan üçün real təhlükədir. "Fransızlar sputnik satmaqla Ermənistan tərəfini zəiflədir" deyən politoloq açıq-aşkar etiraf edir ki, Azərbaycan iqtisadiyyatı güclüdür və Fransa ilə, ya da hər hansı ölkə ilə münasibətlərdə bu üstünlükdən istifadə edə bilir və indi Azərbaycan, Ermənistan-Fransa münasibətlərinə çiv vurmaq istəyir və bunun üçün hər nə varsa, ondan faydalanır.

Göründüyü kimi, ermənilərin təşvişi artmaqdadır və siyasi ekspertdən tutmuş, ən adi erməniyə qədər hər biri ayrı-ayrılıqda həyəcan təbili çalır və yenə də erməni xislətinə müvafiq olaraq hay-küy, qara-qışqırıq salmaq istəyirlər ki, guya Ermənistan kimi məsum, günahsız bir dövlət təklənib, ona qarşı haqsızlıqlar olunur, beynəlxalq təşkilatların yardımına ehtiyac var. Sözsüz ki, bu, Ermənistanın, eləcə də, ermənilərin simasıdır, daha doğrusu, simasızlığdır və bu təcrübədən istifadə etmələri də birinci dəfə deyil. Ümumiyyətlə, erməni simasızlığı və hiyləgərliyi indi müzakirə mövzusu deyil və hazırda reallıq ondan ibarətdir ki, indi Azərbaycan dövləti ilə üz-üzə qaldıqlarının, ən tez zamanda uduzacaqlarının fərqində olan ermənilərin yuxusu ərşə çəkilib.

**İnam HACIYEV**

---



# Tohid içindəki Şeytan...

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

***Yazıya başlamazdan əvvəl, bir hörmətli və dövlətini sevən axundun vaxtilə dediyi sözünü xatırlatmaq istərdim. O deyirdi ki, bir var namaz qılıb, ibadət edəndə özünü Allah qarşısında sanasan, biri də var ki, namaza idman kimi baxasan, ya da toyuq dimdiyini yerə vurub dən götürən kimi, əyilib-qalxasan. Bunlar fərqli-fərqli məsələlərdir...***

Hazırda dindar maskası altında Azərbaycan dövləti əleyhinə fəaliyyət göstərən şəxslər sosial şəbəkələrdə gah canlı yayımlar, gah da statuslar vasitəsilə mənfur addımlarını atmaqda davam edirlər. Lakin məsələ həm də ondadır ki, özlərini az qala Peyğəmbər və İmam övladı kimi təqdim edən həmin ünsürlər, ümumiyyətlə, hansı məzhəbə və hansı dinə qulluq etdiklərini belə bilmirlər. Daha dəqiq desək, gizlində Şeytana nökərçilik edənlər, açıqda dönüb olublar "müsəlman"...

Sözdə təqvadan, saflıqdan, möminçilikdən, daha nə bilim nədən dəm vuran bəlli simasızlar toplumu, nədənsə, daha kimlərə xidmət etdiklərini deməyə ya cürət etmirlər, ya da demək istəmirlər. Elə isə, biz deyək...

Facebookda şəhadət barmağını yuxarı qaldırıb əqiq üzüyünü millətə reklam etdirən, günaşırı Azərbaycan dövlətinin əleyhinə "moizələr" səsləndirən Tohid İbrahimbəyli, əslində, öz içindəki Şeytanı nümayiş etdirib. Həmin Şeytanı ki, bu gün nökərçilik etdiyi fars şovinist dairələrinin reallıqda ibadət etdiyi büt də, məhz odur və həmin Şeytan Allaha qarşı çıxıb! Ümumiyyətlə, bu gün dövlət əleyhinə çıxmağın günah olduğunu bilə-bilə bunu edən Tohid İbrahimbəyliyə və onu dəstəkləyən saxta dindarlara başqa hansı adı vermək olar ki?!

Ən adi bir gerçəkiliyi xatırladaq. İddia edirlər ki, guya dövlətimiz Qarabağın düşmən tapdağından azad olmasını qəsdən gecikdirir, yəni bunda maraqlıdır və s. (???!!!-R.N.). Lakin bu gün Ermənistana nəfəs borusu verən həmin bu Tohidin xidmət etdiyi dairələrdir. Bu gün Ermənistanın işğalı altında qalan Qarabağımızda fəaliyyət göstərən şirkətlər də onun nökərçilik etdiyi dairələrdir. Bu gün işğal altındakı torpaqlarımızı narkotranzit kimi istifadə edənlər Tohidin şeyxləri, "axundlarıdır". Və bu gün onun gədalıq etdiyi həmin dairələrin "baş mollaları" erməniləri özlərinə qohum millət sayırlar. Yəqin ki, anlayanlar anladı Tohid içindəki Şeytanın nə olduğunu!

Terror, sabitliyi pozmaq, məzhəb və dini ayrıseçkilik salaraq, süni şəkildə xaotik vəziyyət yaratmağa cəhdlər göstərmək - bütün bunlar islam dinində haramdır. Ancaq kimə deyirsən ki..? İçində Şeytan gizlənmiş Tohid məgər bunları bilmirmi? Elə yaxşı bilir ki! Sadəcə, o, pul qazanmaqla məşğuldur. Elə bir pul ki, hətta dünyanın ən qədim peşəsini icra edənlərin qazandıqları o puldan təmizdir! İndi dəyərli oxucularımız özləri dəyərləndirsinlər ki, bunlar nə qədər çirkaba, nə qədər çamura, batağa bulaşmış murdarlardırlar. Öz utopik xəyallarına çatmaq üçün insan qanı tökməyə hazır olan bu şeytanpərəstlər hələ də anlamırlar ki, Azərbaycan dövləti və xalqı qarşısında heç nəyə nail ola bilməyəcəklər. Bu, mümkün olan şey deyil. Necə ki, aslanlar kimi dövlətimizin keşiyində dayanan hüquq-mühafizə orqanlarımız bunun mümkünsüzlüyünü isbatladı. Lazım gələrsə, bundan sonra da isbatlayacaq. Şeytanpərəst Tohid isə bu həqiqəti, yaxşı olardı ki, qulaqlarından sırğa edib assın. Hərgah asmasa, günahını da özündə axtarsın, zatən, günahkardır...

# "YAP bu gün də formalaşır və inkişaf edir"

## *Yeni Azərbaycan Partiyası Biləsuvar rayon təşkilatında yeni ərazi ilk partiya təşkilatı yaradılmışdır*

***Yeni Azərbaycan Partiyası Biləsuvar rayon təşkilatında yeni ərazi ilk partiya təşkilatı yaradılıb. Bununla da, xalqın partiyası olan YAP-ın Biləsuvar rayonu üzrə ərazi ilk partiya təşkilatlarının sayı 71-ə çatdırılıb. İlk partiya təşkilatının yaradılması ilə bağlı Biləsuvar mebel sexində iclas keçirilmişdir.***



İclası giriş sözü ilə acan YAP Biləsuvar rayon təşkilatının aparat rəhbəri Əjdər Niftiyev Ümummilli Liderimiz Heydər Əliyevin qurucusu olduğu YAP-ın yaranma tarixindən, keçdiyi şərəfli, qururverici yoldan və əldə etdiyi nailiyyətlərdən danışıb. Bildirib ki, xalqın YAP-a olan inam və etibarı nəticəsində, iqtidar partiyası Cənubi Qafqazın ən nüfuzlu və lider partiyasına çevrilib: "YAP bu gün də formalaşır və inkişaf edir. Yeni-yeni ərazi ilk partiya təşkilatları yaradılır və insanlar bu partiyaya üzv olurlar. YAP həm kəmiyyət, həm də keyfiyyət baxımından tanınır və qəbul edilir".

Biləsuvar ərazi ilk partiya təşkilatının yaradılmasından danışarkən, Ə.Niftiyev bildirib ki, mebel sexinin işçiləri rayon təşkilatına müraciət edərək partiya sıralarına daxil olmaq istədiklərini bildirmişdilər: "Müraciət rayon təşkilatında müzakirə edilmiş və qərara alınmışdır ki, Biləsuvar rayon mebel sexində yeni ərazi ilk partiya təşkilatı yaradılsın".

İclasda mebel sexinin işçilərindən partiya üzvü Gulmalı Gulalıyev və Elnur Rzazadə çıxış edərək Yeni Azərbaycan Partiyasının üzvü olduqları üçün fəxr etdiklərini bildiriblər. Qeyd etdilər ki, Yeni Azərbaycan Partiyası, nəinki regionda eləcə də, beynəlxalq aləmdə böyük nüfuz qazanmış bir partiyadır.

İclasda partiya sıralarına daxil olmaq üçün ərizə ilə müraciət edən işçilərdən Elşən İbrahimli, Məhərrəm Xəlilov, Zaur Səfərov, Yusif İbrahimli və başqaları çıxış edərək, öz qəlblərinin hökmü ilə YAP-ın sıralarına daxil olmaq istədiklərini bildirdilər. Qeyd etdilər ki, partiyanın Proqram və Nizamnaməsi ilə tanışdılar və partiya Nizamnaməsini müddəalarına əməl etməklə, partiyanın prinsiplərini həyata keçirilməsi üçün çalışacaqlar.

Çıxışlardan və müzakirələrdən sonra, ərazi ilk partiya təşkilatının sədr seçildi.

**Rəfiqə**

# Ekspert: "Azərbaycanda vicdan azadlığına olan münasibət göz önündədir"

***Bəzi xarici dairələr və onların din pərdəsi arxasında gizlətdiyi vətən xainləri nəyin bahasına olursa-olsun Azərbaycan xalqının və dövlətinin iradəsini qırmağa, vətəndaşlarımız arasına nifaq toxumu səpməyə çalışırlar. Bu prosesin vahid mərkəzdən idarə olunduğuna qətiyyən şübhə yoxdur və prosesin arxasında dayanan xüsusi xidmət orqanlarının, işğalçı Ermənistanı himayə edən, Azərbaycan torpaqlarının qəsb edilməsi zamanı Ermənistan üçün "həyat yolu" missiyasını yerinə yetirən, regionu münaqişələr, qarşıdurmalar yolu ilə nəzarətdə saxlamağa çalışan dairələrin də ünvanı hər kəsə bəllidir.***

Bu fikirləri AZƏRTAC-a açıqlamasında siyasi ekspert Elçin Mirzəbəyli bildirib. O qeyd edib ki, beynəlxalq hüququn bəzi subyektləri nəinki elan etdikləri prinsiplərə, qoşulduqları konvensiyaların müddəalarına əməl etmir, əksinə, terrorizm, aqressiv separatizm və digər bu kimi insanlıq əleyhinə cinayətlərə ortaq olur, bütün dinlərin, o cümlədən İslam dininin təşviq etdiyi humanizm prinsiplərinin, bəşəri dəyərlərin gözdən salınmasına xidmət edirlər. Kimsəyə sirr deyil ki, bəzi qüvvələr ayrı-ayrı Azərbaycan vətəndaşlarını qanunsuz yollarla əməkdaşlığa cəlb edir, onları qeyri-qanuni hərbi birləşmələrin, terror qruplarının təlim mərkəzlərinə göndərir və ölkəmizə qarşı müxtəlif cinayət əməllərində istifadə etməyə çalışırlar. Maraqlıdır ki, Azərbaycana qarşı həyata keçirilən bu təxribatlarda bir-birinə tamamilə zidd ideoloji müstəvidə formalaşan teokratik və sekulyar rejimlərin təmsilçiləri vahid mövqedən çıxış edir, yayındırıcı manevrlərlə diqqəti hücumların real məqsədindən yayındırmağa çalışırlar.



Müsahibimiz, həmçinin bildirib ki, diqqəti cəlb edən məqamlardan biri də öz sərhədlərindən kənarda terrora, dinin radikallaşmasına və siyasi məqsədlər üçün istifadə edilməsinə qarşı çıxdığını iddia edən bəzi subyektlər öz sərhədləri daxilində başqa bir ölkəyə, indiki halda Azərbaycana qarşı təşkil edilən terror və separatizm ssenarilərinin yazıldığı və icrasına sifariş verildiyi məkana çevrilir. Öz ərazisində baş qaldıran separatizm və terrorizm dalğasına, din pərdəsi arxasında daldalanan radikal qruplara qarşı tanklarla, raketlərlə mübarizə aparan, bütöv kəndləri, şəhərləri bombalayan dövlətlər başqa ölkəyə qarşı oxşar təxribatları həyata keçirən qrupları himayə edir, onlara hər cür imkanlar yaradır, şəbəkələşmələrinə, informasiya və kommunikasiya texnologiyalarından geniş istifadə etmələrinə hərtərəfli şərait yaradırlar. Bütün bunlar isə sübuta yetirir ki, təxribatçıların istifadə etdikləri "din", "Qarabağ məsələsi", "sosial problemlər" və bu kimi tezislər onlara haqqında danışdığım subyektlərin müvafiq strukturları tərəfindən ötürülüb və Azərbaycana qarşı həyata keçirilən təzyiq kampaniyasının tərkib hissəsidir.

Ekspert qeyd edib ki, əslində "Azərbaycan hökuməti Qarabağı azad etməkdə maraqlı deyil" iddiasını ortaya atanların niyyəti ölkəni qarşıdurmaya aparmaq, gücdən salmaq və təslimçi sülhə sövq etməkdir. Bunun üçün isə onlara Azərbaycana özlərinin idarə etdiyi, hətta forpostdan da aşağı statusa malik olan oyuncaq dövlət və marionet idarəçilər lazımdır. Onlar Azərbaycanın maraqlarını müdafiə edən, silahlı qüvvələri gücləndirən, ordunu dünyanın müxtəlif ölkələrində istehsal edilən ən müasir silahsursat, hərbi texnika ilə təchiz edən, ölkənin beynəlxalq əlaqələrini genişləndirən, nüfuzunu artırmaq üçün çalışan, dövlətinin maraqlarını və qürurunu qoruyan dövlət başçısını özlərinə ən böyük təhlükə görürlər.

Ekspert vurğulayıb ki, bu gün Azərbaycanda vicdan azadlığına olan münasibət göz önündədir. Bu istiqamətdə yürüdülən siyasət dövlətin prioritet istiqamətlərindən biridir. Tolerantlıq Azərbaycan xalqının mədəniyyətinin mahiyyətini, dünyagörüşünün fəlsəfi təməlini əks etdirir. Qarabağı Azərbaycandan qoparmağa çalışan dairələr isə bunun əksini, ermənilərlə azərbaycanlıların birgəyaşayışının mümkün olmadığını sübut etməyə çalışırlar. Azərbaycanda dini müstəvidə nifaq toxumu səpilməsinə cəhd də buradan qaynaqlanır. Əleyhdarlarımız müxtəlif vasitələrlə ölkəmizdə qarşıdurma, barışmazlıq mühiti yaratmaq istəyirlər ki, bundan sonra da ermənilərin Azərbaycanda yaşamasının mümkün olmadığını bütün dünyaya körükləyə bilsinlər. Elçin Mirzəbəylinin fikrincə, bu təxribatların detalları arasında Azərbaycanı dünyadan təcrid etmək, bir, yaxud ortaq mövqedən çıxış edən bir neçə subyektin təsiri altında saxlamaq, ölkəmizin uğurlu enerji siyasətinin qarşısını almaq, dövlətimizin dünyaya açılışını, inkişafını əngəlləmək, asılı vəziyyətə salmaq niyyəti də var. Şübhəsiz, bütün bu amillər sübuta yetirir ki, hədəfdə Azərbaycan dövləti, xalqı və övladlarımızın gələcəyidir. Bütün bu təhdidlər sabitliyimizə, təhlükəsizliyimizə, azad və firavan yaşamaq iradəmizə qarşı yönəlib. Bu təhdidlərə qarşı bu günə qədər olduğu kimi, yenə də dövlət və xalq olaraq birlikdə mübarizə aparmalıyıq.

## Din xadimi: "Bəzi qruplar sosial şəbəkələrdə din pərdəsi altında anti-Azərbaycan təbliğatı aparmağa çalışırlar"



Ölkəmizdə yaşayan azsaylı xalqlara, eləcə də İslam və digər dinlərə etiqad edənlərə yaradılan şərait bütün dünyada nümunə kimi göstərilir. Ölkəmizdə millətlərarası münasibətlər yüksək səviyyədə qurulub, dinlərarası ünsiyyət təmin edilib. Amma çox təəssüf ki, bəzi qruplar sosial şəbəkələrdə din pərdəsi altında anti-Azərbaycan təbliğatı aparmaqla bunu əksini sübut etməyə çalışırlar. Onlara ən tutarlı cavabı elə biz dini icma nümayəndələri verməliyik. Aparılan qarayaxma kampaniyasının heç bir əsası yoxdur.

Bu sözləri AZƏRTAC-ın bölgə müxbirinə müsahibəsində Qafqaz Müsəlmanları İdarəsinin Xaçmaz bölgəsi üzrə dini icmasının sədri Yaşar Rzayev bildirib. "Deyirlər ki, guya ölkəmizdə dindarlar sıxışdırılır. Ağ yalandır. Azərbaycanın hansı bölgəsinə getsəniz yeni tikilmiş məscidlərə, ibadət evlərinə rast gələ bilərsiz. Müsəlman bacı və qardaşlarımız hansı təriqətə aid olmalarından asılı olmayaraq sərbəst şəkildə ibadətləri ilə məşğul olurlar. Müsəlmanlarla yanaşı, digər dinlərə mənsub olan vətəndaşlarımız da dini ayinlərini sərbəst yerinə yetirir, bayramlarını maneəsiz qeyd edirlər. Bir faktı deyim. Xaçmazda uzun illərdir "Müqəddəs möcüzəvi Nikolay" pravoslav kilsəsi fəaliyyət göstərir. Ölkəmizin şimal rayonlarında yaşayan xristian icmasının üzvləri kilsəyə gələrək dini ayinlər həyata keçirib, dualar oxuyurlar. Rayonumuzda 20-dən çox etnik qrupun üzvləri yaşasa da, heç vaxt milli zəmində münaqişə və ya hər hansı problem yaşanmayıb. Belə olan halda hansı ayrı-seçkilikdən, sıxışdırılmadan söhbət gedə bilər. Bunların hamısı böhtandır", - deyə Yaşar Rzayev qeyd edib.

Din xadimi işğal altında olan torpaqlarımızın da tezliklə azad olunacağına əminliyini ifadə edib: "Prezidentimiz bütün vasitələrdən istifadə edərək Qarabağımızın işğaldan azad olunması üçün çalışır. Münaqişənin qansız-qadasız, sülh yolu ilə həllinə səy göstərir. Bununla yanaşı, 2016-cı ilin şanlı Aprel döyüşləri göstərdi ki, silahlı birləşmələrimiz lazım olan anda öz gücünü ortaya qoyub ermənilərə sarsıdıcı zərbə vurmağı bacarır. Diqqət yetirin, azad olunmuş Cocuq Mərcanlı kəndində Prezident İlham Əliyevin tapşırığına əsasən Şuşa məscidinin bənzəri olan məscid tikildi. Bu, ölkəmizdə dinə, dindarlara olan münasibətin bir göstəricisidir. Eyni zamanda, işğalçı Ermənistana və beynəlxalq aləmə bir mesajdır. Biz torpaqlarımızı azad edəcəyik, dini və milli mənəvi dəyərlərimizə sahib çıxacağıq".

## Film və seriallarda ana dilinin normaları kobud şəkildə pozulur




"Azadlıq Hərəkatçıları" İctimai Birliyi Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə "Bədii filmlərdə və teleseriallarda Azərbaycan dilinin saflığının qorunması" layihəsini həyata keçirir. Layihənin əsas məqsədi "Qloballaşan indiki dünyada Azərbaycan dilinin saflığının qorunması və dilçiliyin inkişafına dair" Azərbaycan Respublikası Prezidentinin 2013-cü ilin aprelində imzaladığı Dövlət Proqramından irəli gələn vəzifələrin həyata keçirilməsində cəmiyyətin fəallığını artırmaqdan, ziyalıların və gənclərin diqqətinin bu mühüm sahəyə cəlb edilməsinə yardımçı olmaqdan ibarətdir.

1 Avqust Azərbaycan Dili və Əlifbası Günü ərəfəsində layihənin icrasının gedişi ilə bağlı layihənin rəhbəri, "Azadlıq Hərəkatçıları" İctimai Birliyinin sədri, Təhmasib Novruzov bildirdi ki, layihə çərçivəsində dilçi-alimlərdən ibarət ekspert qrupu tərəfindən son 15 ildə istehsal olunmuş 46 bədii filmin və hər birindən üç bölüm olmaqla 16 teleserialın müşahidəsi həyata keçirilmişdir: "Müşahidələr zamanı ana dilimizlə bağlı qüsurları hər bir azərbaycanlını ciddi narahat edəcək qədər çoxdur. Elə filmlərimiz var ki, araşdırma zamanı 200-dən çox dil qüsuru aşkar edilmişdir. Hazırda layihənin İcra Planına uyğun olaraq, SƏS TV onlayn televiziyasında "Kinomuz və dilimiz" adlı video-filmin çəkilişinə başlamışıq. Aşkar olunan qüsurlar narahat olmağa kifayət qədər ciddi əsas verir. Ona görə də, nəzərdə tutmuşuq ki, yekunda Mədəniyyət Nazirliyinin müvafiq strukturlarının, Azərbaycan Kino Birliyinin, ziyalıların, gənclərin və film istehsalçılarının iştirakılə elmi-praktik konfrans keçirək. Konfransda filmin nümayiş etdirilməsi və aşkar olunan qüsurlarla bağlı müzakirələrin keçirilməsi nəzərdə tutulur".

**RƏFİQƏ**











***Son günlər Ermənistanda siyasi-iqtisadi böhran daha da gərginləşib. Xüsusilə də, işğalçı ölkənin yeni baş naziri Nikol Paşinyan 3 ay hakimiyyətdə olmasına baxmayaraq, bu müddətində nə siyasi, nə də iqtisadi sahədə bir addım belə irəliləyişə nail ola bilməyib. Politoloqlar bildiriblər ki, artıq bu az müddət ərzində "küçə demokratı"nın savadsızlığı açıq-aydın görünməkdədir: "Nikol Paşinyanın vədlərinin sonu çatır. Küçədən bəyan etdiyi və pafoslu səslənən fikirlərdən artıq konkret əmələ keçmək gərəkdir. Bunun üçün obyektiv gerçəkliyi nəzərə alan, müdrik və müasir çağırışlara cavab verən siyasi kurs müəyyənləşdirmək gərəkdir. Müşahidələr göstərir ki, N.Paşinyan bu mövqedən çox uzaqdır və 3 ay ərzində yeni heç bir addım ata bilmir. Əksinə, meydana çıxan daxili problemlər hakimiyyəti daha mürəkkəb dairəyə sürükləyir".***

# Ermənistan siyasi-iqtisadi böhran tələsində

## Rəsmi İrəvan problemlərdən çıxış yolu tapa bilmir









### "Milli qəhrəman" hesab edilən Paşinyanın əməlləri, əslində, bir quldurun iç üzüdür

Erməni mətbuatı da Paşinyanın 3 ay ərzində öz əməlləri ilə quldur siyasəti apardığını vurğulayır: "Elə bu cəhətdən də Ermənistan ictimai şüurunda Nikol Paşinyan eyforiyası səngiyir: "Artıq N.Paşinyanın pafoslu küçə ritorikasının imkanları tükənməkdədir. İnsanlara vəd verməyin bir həddi var. Müəyyən müddətdən sonra real əməl tələb olunur.

Göründüyü kimi, proseslər göstərir ki, Ermənistanda hökumət dəyişsə də, erməni siyasətinin məntiqi dəyişməyib. Bu gün əzilən ermənilər iki yol arasında qalıb - Serj Sarkisyan iqtidarının yaratdığı korrupsiya sisteminin fəsadları, digər tərəfdən isə, hələ də küçə məntiqi ilə hansısa radikal dəyişikliklər etmək istəyən N.Paşinyan bəlası".

Ən qəribəsi də odur ki, erməni ekspertlər Paşinyana çıxış yolu da göstərirlər: "İlk öncə, oliqarxları neytrallaşdırmaq lazımdır, əks halda, demokratiya və inkişaf olmayacaq".

"Çiçəklənən Ermənistan" Partiyasının sədri Qaqik Sarukyan isə bəyan edir ki, N.Paşinyan, bütün sahələrdə olduğu kimi, o sahədə də səriştəsizdir. Q.Sarukyan onunla məsləhətləşmədən N.Paşinyanın seçki islahatı aparmasını tənqid edib və onu da vurğulayıb ki, hər bir halda, Ermənistanda kadr dəyişikliyi ilə ölkə həyatında hiss ediləcək yenilənmə müşahidə edilmir.

Ermənistanda yaranmış siyasi-iqtitsadi gərginliyin səbəblərinə aydınlıq gətirən ekspertlərin sözlərinə görə, son günlər erməni mediasında istər baş nazir Nikol Paşinyan, istər müdafiə naziri David Tonoyan və digərlərinin cəbhə xəttində siyasi-hərbi gərginliyin yüksək olması ilə bağlı bəyanatlarla çıxış etmələridir: "Bunun da ilk səbəbi daxili amillə bağlıdır. Daha doğrusu, ölkədə aprel inqilabından sonra da hökm sürən sosial-iqtisadi böhrandan çıxmaq əvəzinə, bu böhranın daha da dərinləşməsi, korrupsiyanın miqyasının həddən artıq böyük olması və dərin kök salması isə Paşinyan hakimiyyətini dalana dirəməsidir". Erməni ekspertlər onu da bildirir ki, inqilab öncəsi Nikol Paşinyan hakimiyyətə gəldikdə. bildirirdi ki, qısa zamandan sonra ölkə əhalisinin iqtisadi-sosial vəziyyətini yaxşılaşdıracaq. Ancaq 3 ay müddət keçməsinə baxmayaraq, bu istiqamətdə heç bir addım ata bilməyib. Sadəcə, korrupsiya ilə mübarizə altında bəzi iş adamları və məmurları, daha doğrusu, özünə rəqib hesab etdiyi şəxsləri sıxışdıraraq, onların əlindəkilərini almaqla məşğuldur. Artıq xalq ona olan inamını itirməkdədir. Digər tərəfdən isə, Paşinyan başda olmaqla, müdafiə naziri və digər rəsmilərin sərhəddə vəziyyətin gərgin olmasını və Azərbaycan tərəfin müharibəyə başlamaq niyyətində olması barədə fikirləri cəmiyyətə çatdırmaqla diqqəti yayındırmağa çalışmaları ilə bağlıdır. Eyni zamanda, Azərbaycan ordusunun iyunun 26-da keçirdiyi hərbi parad və nümayiş etdirildiyi silahlar da Paşinyan hakimiyyətini çox narahat edir".

Erməni mətbuatının yazdığına görə, Ermənistanın müdafiə naziri David Tonoyan da verdiyi müsahibəsində Türkiyə-Azərbaycan hərbi alyansının güclənməsinin Ermənistanın milli təhlükəsizliyinə və dövlətçiliyinə ciddi təhdid hesab etdiyini bildirib: "İrəvan yaxşı anlamağa başlayır ki, müharibə başlayarsa, bu gücün qarşısında tab gətirmək qeyri-mümkün olacaq".

Bütün bu reallıqlar, onu təsdiqləyir ki, Ermənistanın müstəqil dövlət olması hələ mümkün deyil. Lakin tarix göstərir ki, belə vəziyyət uzun müddət davam etmir. Həradasa qırılma nöqtəsi vardır. Ermənistan da bir dövlət kimi yaxın perspektivdə ciddi böhrana düşəcək. İndi mövcud olan problemlər birbaşa dövlətçiliyin taleyinə təsir edəcək. Bu acı taleyi yaşamamaq üçün yeganə çıxış yolu erməni silahlı quldur dəstələrinin işğal etdikləri Azərbaycan ərazisini tərk etməsidir. Ancaq qəribədir ki, erməni xalqı qəflət yuxusundan hələ də ayılmaq istəmir. Bununla, o özünü bütövlükdə, fəlakətə sürükləyir. Paşinyanı gətirəndə elə zənn edirdilər ki, küçə demokratı gəlib onlara gün ağlayacaq, Ancaq heç ölkəsinin sərhədlərini belə qoruya bilmədiyini, Azərbaycan Ordusu ilə müharibədən isə qorxduğunu gizlətməyən "müstəqil ölkə"nin baş naziri Paşinyan açıq-aydın etiraflar edirsə, hansı xoş gündən danışmaq olar? Bax, budur sizin çıxış yolunuz - Paşinyan! Vəssalam! Ancaq misal var - "özü yıxılan ağlamaz"!

**RƏFİQƏ HÜSEYNOVA**

# Ermənistan ədalət qılıncının qarşısında aciz duruma düşmək üzrədir

*Ölkə həbs dalğaları və siyasi böhran içində çabalayır*

***Robert Koçaryanın və Yuri Xaçaturovun həbsləri Ermənistandakı vəziyyəti gərginləşdirib. Artıq bir sıra ictimai-siyasi dairələr, xüsusilə, hakim Respublika Partiyası, Daşnaksütyan, eləcə də, Koçaryanın siyasi ofisi sərt bəyanatlar yayaraq, həbs olunanların dərhal azadlığa buraxılanlarını tələb edirlər. Lakin Nikol Paşinyan hökuməti bu tələbləri qulaqardına vuraraq, hətta Rusiyadan KTMT-nin baş katibi Yuri Xaçaturovun bu vəzifədən çıxarılmasını tələb edirlər. Xatırladaq ki, Y.Xaçaturov da 1 mart qanlı olaylarında xalqa atəş açmaq əmrini alan və bunu amansızcasına yerinə yetirən yüksək rütbəli erməni generallarındandır. Onu da qeyd edək ki, Rusiya qarşısında tələb qoyan Paşinyan hökuməti qarşı tərəfin kəskin bəyanatı ilə qarşı-qarşıya qalıb və artıq Ermənistanla Rusiya arasında ciddi qarşıdurmanın baş verəcəyi an məsələsinə çevrilib. Söz yox ki, Rusiyanın forpostu rolunu oynayan Ermənistanın ərköyünlüyü, artıq Rusiyanı boğaza yığıb və bunun sonu heç də ermənilər üçün yaxşı görünmür.***



## Aydın Mirzəzadə: "Bu cinayətlərinə görə təəssüf ki, onlar indiyə qədər mühakimə olunmayıblar"

Bu arada millət vəkili Aydın Mirzəzadə baş verən həbslərlə bağlı feysbuk səhifəsində fikirlərini bölüşüb. O, baş verənləri təhlil edərək, erməni xalqına qan udduran Koçaryan və Xaçaturovun azərbaycanlılara qarşı da eyni əməl törətdiklərini xatırladıb. SİTAT: "Azərbaycanda R.Koçaryan və Y.Xaçaturovu tanımayan yoxdur. Biri on il Ermənistanın prezidenti, ikincisi isə on il Ermənistan silahlı qüvvələri baş qərargahının rəisi olub. Ancaq bizlər onları vəzifələrinə görə yox, Azərbaycan torpaqlarının işğalında, vətəndaşlarımızın öz dədə-baba torpaqlarından qovulmasında və qətlə yetirilməsində, Xocalı faciəsinin baş verməsində xüsusi rollarına görə tanıyırıq. Bu cinayətlərinə görə, təəssüf ki, onlar indiyə qədər mühakimə olunmayıblar".

A.Mirzəzadə bu cinayətlərinə görə sözügedən şəxslərin cavab verəcəklərinə inandığını bildirib və əlavə edib ki, onlar 2008-ci ildə Ermənistanda konstitusiyalı hakimiyyəti zorla ələ keçirməkdə ittiham edilirlər: "Qarabağda törətdikləri cinayətlər yada salınmır, ancaq Koçaryan-Xaçaturov məsələsi göstərir ki, başqa xalqa qarşı cinayət törədənlər heç zaman öz xalqına xoşbəxtlik gətirə bilməz. Cinayətkar həmişə cinayətkardır. Hətta öz xalqına qarşı da o, mütləq cinayət törədir. Ermənistanda baş verənlər daxili siyasətin nüanslarıdır, ancaq tarix bir daha sübut etdi ki, insanlığa qarşı cinayət törədənlər mütləq cəzalalarını alırlar".

Beləliklə, həm də belə qənaətə gəlmək olar ki, Ermənistanda cərəyan edən hadisələr və bu fonda davam edən siyasi böhran ölkədə xaos və anarxiyaya doğru istiqamət alıb.

## Qabil Hüseynli: "Serj Sarkisyan həbs ediləcək"

Mətbuata açıqlamasında politoloq Qabil Hüseynli də maraqlı məqamlara toxunub. O, KTMT-nin baş katibi Y.Xaçaturovun da həbsini təhlil edərək deyib ki, Xaçaturovun KTMT-nın baş katibi vəzifəsindən azad olunması üçün Rusiyaya müraciət edilib: "Eyni zamanda, Rusiyadan başqa, digər iştirakçı dövlətlərə də müraciət edilib".

"Hətta Ermənistanın keçmiş prezidenti Serj Sarkisyan da həbs ediləcək"-deyə proqnoz verən politoloq da hesab edir ki, bu kimi məsələlər İrəvanda, o cümlədən, Dağlıq Qarabağda vəziyyəti daha da gərginləşdirəcək: "Çünki həbslər dalğası genişlənir və bu Qarabağa da çata bilər. Bütövlükdə, həbslər Serj Sarkisyanın komandasına daxil olan hərbçilərdən və məmurlardan tutmuş yüksək vəzifəli şəxslərə qədər hamısını əhatə edə bilər. Bu isə, böyük gərginlik deməkdir. Ermənistanın baş naziri Nikol Paşinyanın isə bütün bunlardan necə baş çıxaracağını söyləmək çətindir".

Nəticə etibarilə, Ermənistan daha ağır vəziyyətə doğru sürüklənir və bu vəziyyətin əsasında işğalçılıq siyasətinin dayanması da şübhəsizdir. Necə deyərlər, haqq nazilər, amma üzülməz. Hər halda, haqsız tərəf olan Ermənistan ədalət qılıncının qarşısında aciz duruma düşmək üzrədir.

***Rövşən RƏSULOV***

# "Paşinyan orijinal təxribatlar hazırlayıb"

***"Ermənistanın yeni baş naziri Nikol Paşinyan Aİ rəsmiləri ilə görüşdə Dağlıq Qarabağa hücumu bütün regionda çiçəklənən demokratiyaya hücum kimi təqdim etdi. Guya Ermənistandakı "məxməri inqilab" Azərbaycanı qorxudub. Bununla demokratiya adından Aİ-ni şantaja çəkdi". Bunu SİA-ya açıqlamasında Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin direktoru, politoloq Mübariz Əhmədoğlu deyib.***



Onun sözlərinə görə, Aİ rəsmilərinin davranışı N.Paşinyanın şantajının effekt yaratmadığını göstərdi: "F.Moqerinin N.Paşinyanla görüşdən dərhal sonra yaydığı bəyanat bunun ən bariz nümunəsidir. F.Moqerini Dağlıq Qarabağ danışıqlarını dolğun məzmunda və heç bir şərt qoymadan davam etdirməyə çağırdı. Bu bütün Qərb dünyasının N.Paşinyana cavabı kimi dəyərləndirilə bilər. Aİ-nin xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi F.Moqerinin barmağı dünya siyasətinin nəbzinin üstündədir.

Özünün etirafına görə N.Paşinyanın demokratiyası cəmi 3 aylıqdır. Belə demokratiyanın hansısa dövlətə təhlükə yaratması və ya Ermənistanda bərqərar olması yalnız N.Paşinyanın fantaziyasının məhsuludur. Belə görünür, Ermənistanda da heç kim onun 3 aylıq demokratiyasına inanmır.

N.Paşinyanın Dağlıq Qarabağ danışıqları üçün daha bir orijinal təxribatı oğlunun Dağlıq Qarabağda hərbi xidməti üzərində qurulub. Ermənistan qanunlarına görə N.Paşinyanın oğlu ən azı 4 il bundan qabaq hərbi xidmətdə olmalı idi. 18 yaşına çatmış Ermənistan vətəndaşı hətta ali məktəbə daxil olsa da belə təhsilini dayandırıb, hərbi xidmətə getməlidir. N.Paşinyanın oğlu Baltikyanı dövlətlərin birində ali məktəbə daxil oldu. Ali məktəb dünya miqyasında TOP 10-luq da deyildi, eləcə də Aşot Paşinyan da xüsusi talantlılar cərgəsində deyildir. Aşot Paşinyan təhsilini yarımçıq dayandırıb, hərbi xidmətə getmədi. Bununla da Ermənistan qanunlarını pozdu. S.Sərkisyan deputat N.Paşinyanın demaqoqluğunun qorxusundan bu məsələni qaldırmadı. Hər halda 4 il bundan qabaq Aşot Paşinyan hərbi xidmətə dəqiq Dağlıq Qarabağa getməyəcəkdi.

Yeni baş nazir N.Paşinyan oğlunu Dağlıq Qarabağa hərbi xidmətə göndərməklə beynəlxalq hüquq normalarını pozdu. Çünki N.Paşinyanın beynəlxalq hüquq normalarına münasibətinin necəliyindən asılı olmayaraq Dağlıq Qarabağ de-yure Azərbaycan ərazisidir. BMT 1992-ci ildə keçmiş SSRİ respublikalarını üzv qəbul edərkən Uti possidetis prinsipindən istifadə etdi. O zaman aktiv jurnalistika ilə məşğul olan tələbə N.Paşinyan bu məsələyə etiraz etmədi.

N.Paşinyanın oğlunun Dağlıq Qarabağda hərbi xidmətdə olması:

I. Azərbaycan rəhbərliyinin onunla görüşünü qəlizləşdirir. N.Paşinyan və onun ətrafı bunu Dağlıq Qarabağın qeyri-Azərbaycan ərazisi kimi legitimləşdirilməsi istiqamətində addım kimi təqdim edəcəklər. Guya Azərbaycan rəhbərliyi oğlu Dağlıq Qarabağda hərbi xidmətdə olan Ermənistan rəhbəri ilə görüşüblər. Həqiqətən tənzimlənmənin tarixində ilk dəfədir belə hal yaranır. L.Ter-Petrosyanın övladlarının davranışı barədə təfsilatlı məlumat yoxdur. R.Köçəryan Ermənistan prezidenti olduqdan sonra oğlanları hətta Dağlıq Qarabağa nadir hallarda gedirdi. S.Sərkisyanın oğlu olmayıb.

II. N.Paşinyan və onun ətrafı beynəlxalq aləmdə Aşot Paşinyanın Dağlıq Qarabağda hərbi xidmətdə olmasına "Azərbaycan rəhbərliyinin dözümlü münasibət nümayiş etdirməsini" təbliğat elementinə çevirib ATƏT MQ-yə və digər dövlət başçılarına təqdim edəcəklər.

III. N.Paşinyan oğlunun Dağlıq Qarabağda hərbi xidmət keçməsini özünün danışıqlar prosesində birbaşa iştirakı ilə konkret əlaqələndirə biləcək. Danışıqların gedişində kimsə ona ön xətdə atışmanın başladığı xəbərini verə bilər. İsterika sahəsində böyük təcrübəsi olan N.Paşinyan danışıqlar stolu arxasında müxtəlif dəliliklər edə bilər.

Dağlıq Qarabağ danışıqlarında Ermənistan tərəfinin orijinal yayınma variantları olub. İndi həbsdə olan R.Köçəryan danışıqlardan bir dəfə tualetə getmək adı ilə qaçıb. Başqa bir vaxtda isə hansısa qohumunun ölüm xəbərindən istifadə edib son anda danışıqları yarımçıq kəsib. S.Sərkisyanın da belə variantları olub.

N.Paşinyan isə 3 aylıq demokratiyasını və Ermənistan qanunları ilə hərbi xidmətdən yayınmış oğlunu Dağlıq Qarabağa hərbi xidmətə göndərməklə Dağlıq Qarabağ üzrə dinc danışıqlardan yayınmaq üçün orijinal təxribat metodları hazırlamaq üçün istifadə edir.

Bəlkə də N.Paşinyan Dağlıq Qarabağ danışıqlarına hazır deyil. Bu halda ən yaxşı variant danışıqların Dağlıq Qarabağın azərbaycanlı və erməni icmalarına həvalə edilməsidir. İl yarımdan sonra N.Paşinyanın oğlunun hərbi xidməti başa çatacaq, demokratiyasının təxminən 2 yaşı olacaq. Hakimiyyətdə qalsa, danışıqları özü davam etdirər".

# "Bakcell"dən "İnstagram" istifadəçiləri üçün maraqlı müsabiqə

***Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkəti sosial şəbəkələrdən aktiv istifadə edən abunəçiləri üçün maraqlı müsabiqə keçirib. İyun ayının 27-də start götürmüş müsabiqədə iştirak etmək üçün "Bakcell"i "Instagram"da izləyən abunəçilər kreativ şəkil çəkərək, onu maraqlı stikerlərlə bəzəməli və üzərinə #BakcellileDaimOnline heşteqi olan şəkili özünün "Instagram" profilindən açıq şəkildə paylaşmalı idilər. Müsabiqədə iştirak etmiş yüzlərlə abunəçidən əsas hədiyyənin qalibi və 2-ci yeri tutmuş 50 nəfər iştirakçı təsadüfi qaydada müəyyən edilib.***

1-ci yerin qalibi "Bakcell"dən Samsung Galaxy S9 smartfonu qazanıb. Digər qaliblər isə "28 Mall"da yerləşən "Cinemaplus" kinoteatrında eksklüziv təşkil olunmuş "Qarışqa adam və arı" filminin qapalı seansına dəvət olunublar.

Qeyd edək ki, müsabiqə Bakcell-in yeni "DaimOnline" tarifinin tanıdılması məqsədilə həyata keçirilib. Gənclərin daha çox sosial şəbəkələr və mesajlaşma tətbiqetmələrindən istifadə etməyə üstünlük verməsini nəzərə alaraq, Bakcell şirkəti bir müddət əvvəl yeni "DaimOnline" paketlərini təqdim edib. Üç variantda və müvafiq olaraq 6, 10 və 20 manat aylıq abunə haqqı ilə təklif olunan yeni tarif paketləri sayəsində istifadəçilər limitsiz "WhatsApp", "Facebook" və "Instagram" istifadəsi ilə yanaşı qiqabaytlarla internet və bol-bol şəbəkədaxili dəqiqələrdən yararlana bilirlər.

Bakcell şirkətinin yeni "DaimOnline" tarifləri və digər sərfəli və innovativ təkliflər barədə daha ətraflı məlumat almaq üçün www.bakcell.com səhifəsinə daxil olun.



# Əli Kərimlinin yeni sərgüzəştləri üzə çıxır



***Cəmiyyət tərəfindən tamamilə rədd edilən dağıdıcı müxalif ünsürlərin bəzi təmsilçiləri, etiraf edirlər ki, mövcud iqtidarla siyasi mübarizə aparmağa belə gücləri yoxdur. Onlar bunun səbəbini düzgün siyasət aparmamaları və müəyyən məsələlərdə xarici donor təşkilatları ilə məsləhətləşmələri ilə əlaqələndirirlər.***

Məhz başlıca problem müxaliflərin xarici qüvvələrlə iş birliyinə getmələridir. Çünki bu gün Azərbaycanın sürətli sosial-iqtisadi inkişafını gözü götürməyən erməni təşkilatları və ermənipərəst qüvvələr var və onlar müxalifətə istədiyi vəsaiti böyük həvəslə ayırırlar. Ancaq faktlara və baş verən proseslərə əsasən, birmənalı şəkildə, demək olar ki, xaricdə oturan və oradan dağıdıcı müxalifəti istədikləri kimi idarə edən qüvvələrin bu dəfə də iflasla üzləşəcəkləri şübhəsizdir. Baxmayaraq ki, hələ də bəzi müxalif partiya sədrləri ifşa olunduqları ilə barışmayaraq, müxtəlif şoular yaratmaqla, uduzmağa hazır olmadıqlarını nümayiş etdirməyə çalışırlar. Hətta Müsavat başqanı A.Hacılı və AXCP sədri Ə.Kərimli mitinqlər keçirməklə, hələ də yaşamaq və fəaliyyət göstərmək limitlərinin tükənmədiyini bəyan edirlər. AXCP sədri Ə.Kərimli müavini Gözəl Bayramlının və Fuad Qəhrəmanlının həbs olunmasından sonra iddialı açıqlama ilə çıxış edib. Bu, onu göstərir ki, Ə.Kərimli güdaza verdiyi müavininin həbsindən siyasi dividend əldə etməyə və bununla da, bir daha xarici qüvvələrin diqqətini özünə cəlb etməyə çalışır. Sosial şəbəkələr vasitəsi ilə Ə.Kərimli bu anormal metodunu yenilik kimi təqdim etməyə cəhdlər göstərir. Amma dərk etmir ki, yenilik yalnız ikinci - üçüncü tip şəxslərin müdafiəsi altında xarici qüvvələrə yarınmaq deyil, bütövlükdə, ideologiya dəyişməli, müstəqil və demokratik idarəetmə sistemi qurulmalıdır. Hazırkı müxalifət funksionerlərinin siyasi imici həddən artıq korlanmış durumdadır.

## Siyasi imici korlanmış müxalifət

Neçə müddətdir ki, Ə.Kərimlinin Avropa ölkələrinə baha qiymətə sırıdığı "siyasi mühacirlər" bir-bir ifşa olunduqca. onların arasında gərginlik artır. Gərginlik artdıqca, açılan sirlərin də sayı çoxalır, nəticədə, Ə.Kərimlinin və A.Hacılının əməlləri ifşa olunur. Onlar ünvanlarına yağdırılan ittihamların qarşısında aciz vəziyyətdə qalırlar. Bütün bunlara əsaslanaraq, demək olar ki, xarici qüvvələrdən asılı olan müxalifət artıq parçalanma dövrünü başa vurub, məhvolma mərhələsinə adlayıb. Müxalifət qazanının dibini yalayan ekspertlər də, etiraf edirlər ki, ciddi iradə ortaya qoyub, dəyişikliklərə gedilməsə, müxalifət partiyaları daxilində qeyri-müəyyənliyə gətirib çıxaran anormal vəziyyət düşərgədə ciddi problemlərin yaranmasına gətirib çıxaracaq. Ə.Kərimli ilə siyasi yarışda fərqlənməyə çalışan Müsavat başqanı A.Hacılı da boynundan böyük təkəbbürlü açıqlamalarla çıxış edib. A. Hacılı bildirib ki, yaxın vaxtlarda müxalifətin birgə mitinqinin keçirilməsi üçün partiya sədrləri ilə məsləhətləşmələr aparılır. Ancaq A.Hacılı hansı partiya və hansı sədrlə danışıqlar apardıqlarını qeyd etməyib. Bu isə, onu deməyə əsas verir ki, A.Hacılı yalan danışır, mitinqlər keçirmək üçün hər hansı partiya sədri ilə telefon söhbətləri olmayıb, nəinki görüşüb danışıqlar aparsın. Çünki KAXCP, ADP, "Ümid" və bu kimi digər partiya sədrlərinin son günlər verdikləri müsahibələrə və açıqlamalara nəzər yetirdikdə, onların A.Hacılının istəyinə işarə vuran bir kəlmə də söz və ya ifadə yoxdur. Deməli, A.Hacılını danışdıran, sadəcə, xarici qüvvələrdir. Çünki bu versiya olmasa, A.Hacılı iddialı fikirlər səsləndirə bilməz. Buna onun, sadəcə, cəsarəti çatmaz. Eks-spiker Rəsul Quliyevin dili ilə desək, müxalifət o cəsarətin sahibi deyil ki, xarici himayədarları ilə məsləhətləşmədən hansısa iddialı fikir irəli sürsünlər. R.Quliyev bir qədər əvvəl həmfikirlərini ittiham edərək, onu da bildirmişdi ki, 20 ildir müxalifətçilik edən liderlərin özlərinə bəraət qazandırmaq üçün göstərdikləri səbəblər başadüşülən deyil: "Bu, ən zərərli ideyadır. Bu ideya ilə istənilən məğlubiyyətə haqq qazandırmaq olar. Heç kim "Yeltsin tankın üstünə çıxdığına görə qalib gəldi" - deməz. Tarixin təkəri fırlanır. Fakt "filankəs uddu, filankəs məğlub oldu" söhbətindən gedir. Fəlakət ondadır ki, ideya müəllifi olan liderlər bu sözləri bir neçə dəfə deyəndən sonra özlərinin heç bir günahları olmadığına inanır, yenidən qollarını çırmayıb, "5 ildən sonra biz udacağıq" deməyə hazırlaşırlar. Bu, artıq 20 ildir təkrar olunur. Bu tipli fikirlər xalq arasında çoxdan geniş yayılmış lətifələrə çevrilib."

## Proseslər dağıdıcı müxalifətin əleyhinə işləyir

"ACP"-nin keçmiş lideri R.Quliyevin fikirlərinə və digər müxalif partiya sədrlərinin susqunluğuna əsaslanaraq, demək olar ki, A.Hacılının və Ə.Kərimlinin mitinq keçirmək istək və arzularına müxalifət partiyaları tərəfindən dəstək yoxdur. Bu, isə onu bir daha təsdiq edir ki, sözügedən dağıdıcı ünsürlər mitinqlər keçirsələr belə, xarici qüvvələrin tələbləri reallığa çevrilməyəcək. Xatırladaq ki, bir qədər əvvəl, "Yurddaş" partiyasının sədri Mais Səfərli müxalifətin mitinqlərə hazırlaşmasına münasibət bildirərkən, "Səs" qəzetinə açıqlamasında qeyd etmişdir ki, Müsavat və AXCP kimi partiyalar mitinqlər planlaşdırmaqla özlərinə tərəfdar toplaya biləcəklərini düşünürlər: "Azərbaycan cəmiyyəti olduqca düşüncəlidir. Yəni Azərbaycan cəmiyyəti pisi-yaxşıdan ayırmağı bacarır. Ölkə vətəndaşları radikal müxalifət qüvvələrinin çağırışlarına və bir qayda olaraq, keçirilən mitinqlərə rədd cavabı verirlər. Bu dəfə də radikal müxalifət təmsilçiləri tərəfindən planlaşdırılan mitinqlər uğursuzluğa düçar olacaq. Çünki həmin qüvvələrin heç bir siyasi gücü yoxdur ki, nəyəsə nail ola bilsinlər".

Baş verən proseslər dağıdıcı müxalifətin əleyhinə işləyir. Baxmayaraq ki, xarici fondlar və maraqlı qüvvələr tərəfindən onlara geniş maddi və mənəvi dəstək mövcuddur. Amma buna baxmayaraq, onlar bir şeyi unudurlar: son sözü xalq deyir. Xalq isə indiki dağıdıcı müxalifətə sözünü hələ 1993-cü ildə deyib. Xalqın dəstəyindən məhrum olan fərdlər, qruplar və təşkilatlar məhvə məhkumdur. Necə ki, artıq bu ab-hava müxalifətin başı üstündə əsməkdədir.

**İ.ƏLİYEV**

TƏRS BAXIŞ

# Müxalifət niyə yoxa çıxıb?

*Yaxud yeni "lider" amili heç üfüqdə də görünmür*

***Uzun illər ölkənin siyasi həyatında var-gəl edən dağıdıcı müxalifətin hazırkı dövrdə proseslərə təsir etmə imkanları tükənib. Lakin digər tərəfdən, öz zəifliklərini və gücsüzlüklərini etiraf etmələri yerinə xalqı və ictimaiyyəti ittiham edən "liderlər" özləri-özlərinin xalqdan təcrid etmələri barədə danışmaq fikrində deyillər. Yəni fakt budur ki, dağıdıcı müxalifət pozuculuq prinsipi sayəsində, xalqdan və cəmiyyətdən təcrid olunub, ancaq normal düşüncəli insanlar bunları rədd edir.***

## Özlərini "lider" elan edənlərin isə, ümumiyyətlə, heç bir siyasi perspektivləri mövcud deyil

Digər tərəfdən, daha bir amil budur ki, müxalifətin zəifləməsi, həm də müxalifətdaxili acınacaqlı proseslərlə bağlıdır. Dəfələrlə bir araya gələn müxalifət, sonda qarşılıqlı ittihamlarla özlərini oyundankənar hala saldılar. Hətta seçkilərdə bloklaşanlar belə, sonradan düşmənlərə çevrilir, bu isə, əlbəttə ki, onların ağır durumlarını daha da ağırlaşdıraraq, dalana dirəyir. Müsavat-AXCP savaşı, KXCP-də qarşıdurmalar, digər partiyalarda da bənzər vəziyyətlər deyilənləri, illərdir ki, təsdiq etməkdədir.

Məhz bu və bu kimi digər səbəblərdən, müxalifəti birləşdirəcək heç bir əsas yoxdur. Həm də müxalifəti bir araya gətirəcək siyasi lider də yoxdur. Özlərini "lider" elan edənlərin isə, ümumiyyətlə, heç bir siyasi perspektivləri mövcud deyil.

## Regionda baş verən proseslər, faktiki olaraq, iqtidarın təsir dairəsini genişləndirir, eləcə də xalqın hakimiyyətə olan inamını daha da artırır

Dağıdıcı müxalifətin sıradan çıxması həm regional, eyni zamanda, qlobal siyasətlə bağlıdır. Misal üçün, regionda baş verən proseslər, faktiki olaraq, iqtidarın təsir dairəsini genişləndirir, eləcə də, xalqın hakimiyyətə olan inamını daha da artırır. İqtisadi uğurlar və sosial siyasətdə əldə edilən nailiyyətlər də bu sıradandır. Nəticədə, ənənəvi müxalifət qlobal proseslərə, nəinki təsir etmək, ümumiyyətlə, bu proseslərə qatıla da bilmir. Onu da, xüsusi olaraq, qeyd edək ki, müxalifətin güclənməsini hər zaman beynəlxalq təşkilatlar təmin edirdi. Son vaxtlar isə beynəlxalq təşkilatlarda müxalifətlə əməkdaşlığa maraqlı görünmürlər. Artıq belə qənaətə gəlmək olar ki, müxalifət düşərgəsində heç bir dəyişiklik olmayacaq, olsa belə, bu, həmin tərəfin daha da geriləməsi ilə nəticələnəcək. Çünki bu gün müxalifətə yeni liderlər lazımdır və bu liderlər isə heç üfüqdə də görünmür...

**Rövşən NURƏDDİNOĞLU**

# İki tondan çox narkotik tərkibli çətənə bitkisi məhv edilib



Daxili işlər orqanlarının əməkdaşları tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsi, kultivasiyası, eləcə də yabanı halda bitən narkotik tərkibli bitkilərin aşkarlanması istiqamətində uğurlu əməliyyat-axtarış tədbirləri davam etdirilir. Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Şəki regional qrupundan AZƏRTAC-a verilən məlumata görə, Balakən Rayon Polis Şöbəsi əməkdaşlarının keçirdikləri tədbirlər nəticəsində rayonun Meşəşambul kəndində yabanı halda bitmiş çəkisi 2 tondan çox olan ümumilikdə 3254 ədəd narkotik tərkibli çətənə bitkisi müəyyənləşdirilərək müvafiq qaydada məhv edilib.

# Azərbaycanda 77 qəsdən adam öldürmə cinayətindən 74-ünün üstü açılıb



Azərbaycanda 77 qəsdən adam öldürmə cinayətindən 74-nün üstü açılıb. Trend-in məlumatına görə, bunu Baş prokuror Zakir Qaralov prokurorluq orqanları tərəfindən 2018-ci ilin birinci yarısında "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş fəaliyyət istiqamətləri üzrə görülmüş işlərin vəziyyəti və bu məsələnin bölgə müşavirələrində müzakirələrinin nəticələrinə həsr olunmuş geniş əməliyyat müşavirəsində çıxışı zamanı deyib.

Qeyd olunub ki, həyata keçirilmiş istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri nəticəsində cinayətlərin açılması yaxşılaşaraq 86,4 faiz təşkil edib. O cümlədən, 2017-ci ilin 6 ayı ilə müqayisədə ağır və xüsusilə ağır cinayətlərin açılması 2,1, şəxsiyyət əleyhinə cinayətlərin açılması 0,6, adam öldürməyə cəhdlərin açılması 1,8, mənzil oğurluqlarının açılması 2,6 və avtonəqliyyatın qaçırılması cinayətlərinin açılması 12,8 faiz artıb. Daxili işlər və prokurorluq orqanları tərəfindən birgə davam etdirilən istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri nəticəsində keçmiş illərdən bağlı qalmış 188 cinayət açılıb. 2018-ci ilin birinci yarısında qəsdən adam öldürmə və qəsdən adam öldürməyə cəhd cinayətlərinin açılması, onları törətmiş şəxslərin müəyyən olunaraq məsuliyyətə cəlb edilmələri istiqamətində zəruri tədbirlərin həyata keçirilməsi diqqət mərkəzində saxlanılıb. Prokurorluğun digər hüquq-mühafizə orqanlarının əməliyyat qurumları ilə həyata keçirdiyi birgə əlaqəli işin nəticəsində qeydə alınmış 77 qəsdən adam öldürmə cinayətindən 74 hadisənin açılması təmin olunub, Sumqayıt şəhər, Tovuz və Göygöl rayon prokurorluqlarının hər biri üzrə 1 hadisə olmaqla 3 qəsdən adam öldürmə cinayəti bağlı qalıb. Həmin işlər üzrə hazırda Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində zəruri istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

# Qanun, ailədaxili zorakılıq və qadınların hüquq bərabərliyi

***Hər il iki milyondan dörd milyona qədər qadın öz ərləri tərəfindən fiziki zorakılığa məruz qalır. ABŞ-da qadınların bədən xəsarəti almalarının ən başlıca səbəbi ailədaxili zorakılıqdır. Qətl hadisəsinin qurbanı olmuş qadınlar, məhz indiki və ya əvvəlki ərləri, ya da sevgililəri tərəfindən öldürülüblər. ABŞ-da hər 12 saniyədə bir qadın döyülür. Amma əmin olun ki, belə hərəkət etdiyi üçün hər 12 saniyədə bir kişi həbs edilmir. Kişilərin çox az faizi arvadlarına qarşı zorakılıq hərəkətləri törətdiyinə görə dəmir barmaqlıqlar arxasına düşür.***

ABŞ tədqiqatçısı Maykl Parenti yazır: "Bir çox aztəminatlı qadınlar sosial təminat sistemi vasitəsilə belə vəziyyətdən çıxmağa imkan tapırlar. Bu kömək onları döyən ərlərini tərk etməyə imkan yaradır. Sosial təminat xətti ilə maddi yardımların ixtisar olunması belə alçaldıcı münasibətlərə son qoyanların sayının azalmasına səbəb olmuşdur.

Məhkəmə sistemi çox zaman qadınlara qarşı münasibətdə hüquq bərabərsizliyinə yol verir. Amma onun əsas vəzifəsi hüquqların qorunmasını təmin etməkdir. Çox zaman uşağa görə təyin olunan aliment və müavinətlərin dəyəri xeyli aşağı olur. Ailə zorakılığına məruz qalmış qurbanın, yəni qadının taleyinə məhkəmə etinasız yanaşır. Çox az sayda zorakılıq edən şəxs rəsmi şəkildə günahkar elan olunmuş və qısa müddətdə həbsdə yatmışdır. Zorlama qurbanları ilə elə davranırlar ki, guya onlar özləri günahkardırlar. Bir çox hüquq dairələrində zorlamaya zərərçəkənin deyil, ittiham olunanın mövqeyindən yanaşırlar.

Əvvəllər qadın peşəsi hesab olunmayan sahələrdə işləyən qadınların uzun illər apardıqları mübarizə nəticə vermişdir. Feminist təşkilatlar da bir çox nailiyyətlər qazanmışdır. Onlar qanunverici orqanlarda yüksək vəzifələr tutmaqla zorakılıq edənlərə, yəni arvadlarını döyənlərə, azyaşlıları pis yola çəkənlərə qarşı daha fəal mübarizə aparırlar. Amma hələ də qadınlar daha aşağı səviyyəli yerlərdə iş tapır və maaşı az olan və perspektivsiz işlərə cəlb edilirlər.

Son 25 ildə məcburi hamiləliyin müdafiəçiləri mayalanmış yumurtalığın insani varlıq olduğunu iddia etməyə başladılar. Yumurtalıqdan olan varlığın hüququ onu daşıyan qadının hüququna bərabər hesab edildi. Bu da qadın hüquqlarının pozulması demək idi. Məcburi hamiləliyin müdafiəçiləri ailə planlaşdırma müəssisələrində, abort etmə xəstəxanalarında 1700-dən çox partlayış və yanğın törətdilər. Onlar zorla evlərə soxulur, öldürməklə, partlayışla, hücum etməklə və izləməklə hər kəsi hədələyirdilər. Bundun başqa, iki nəfəri oğurlamış, beş nəfəri snayper tüfəngindən güllələmiş, leqal abort edən həkimlərə və xəstəxananın digər işçilərinə atəş açmışdılar. Bütün bu hadisələr üç nəfərin ölümü ilə nəticələnmişdi. Ölkənin 85 faizi hazırda mamaçaların xidmətinə ehtiyac duyur. Hər il 1,5 milyon qadın leqal abort sahəsində təcrübə toplayır və bu xidmətə görə öz minnətdarlıqlarını bildirirlər. Abortun qanunsuz elan olunduğu ölkələrdə qadınların əksəriyyəti qeyri-peşəkar və təhlükəli cəhdlərə uyğun olmayan şəraitdə abort etdirdikləri üçün ölürlər".

Müəllifin fikrincə, hüquq-mühafizə orqanlarının əməkdaşları açıq şəkildə məcburi hamiləliyin tərəfdarları olan terrorçuları nə izləyir, nə də həbs edirdi.

FTB-nin keçmiş direktoru Uilyam Uebester abort əleyhinə olan və özlərini "Allahın döyüşçüləri" adlandıran, ailə planlaşdırma mərkəzinin iyirmi klinikasını dağıdıb yandıranlara qarşı heç bir tədbir görmədi. Uebester onların "təşkil olunmuş qrup" olduqlarını elan etdi. FTB hələ də aborta qarşı olanların zorakılıqlarına münasibət bildirmir. Təsəvvür etmək çətindir ki, əgər tanınmış radikal bir qrup 1700 bankı yandırsaydı və partlatsaydı, onlara da eyni cür yanaşardılar. 1990-cı ildən bəri həbsxanadakı qadınların sayı iki dəfə artıb. Məhbus qadınlar pis tibbi xidmətə, seksual cəhətdən izlənməyə, zorakılığa, kişi mühafizəçilər tərəfindən həyata keçirilən məcburi yoxlamadan (bu zaman onlar tamamilə soyundurulurlar) keçməyə dözməli olurlar. Bu qadınların çoxu gənc, dilənçi halına düşmüş tənha analar, peşəkar hazırlığı olmayan, seksual və fiziki zorakılığa görə evlərini tərk etməyə məcbur qalmış, alkoqol və narkotik asılılığı olan qadınlardır. Çoxu fahişəlikdə, mağazadan oğurluq etməkdə, soyğunçuluqda və xırda narkotik alverində günahkar bilinir. Onların arasında narkotiklərin böyük dövriyyəsi ilə, qanqsterliklə və talançılıqla məşğul olanı yoxdur. Çox az qismi ciddi zorakılıq aksiyalarında iştirak edib. Əksəriyyəti zorakılığın qurbanlarıdır. Çoxu isə kişilərlə birlikdə törətdikləri cinayətlərə görə ittiham olunublar.

Öz məsuliyyətlərini azaltmaq üçün deyirlər ki, sevgililəri onları cinayətə təşviq edib. Sevgililərinin şahidliyi nəticəsində, bəzi qadınlar ömürlük həbs cəzasına məhkum olunublar. Onlar narkotik maddələrin yayılmasında ittiham olunaraq, həbs müddətinin azaldılması və əfv olunmaq hüququndan məhrum ediliblər. Baxmayaraq ki, dövlət ittiham tərəfi onların bu cinayətdə köməkçi rol oynadığını, özlərinin heç vaxt narkotik satmadığını və ondan istifadə etmədiyini etiraf edib.

Ümumtürk abidəsi "Kitabi-Dədə Qorqud"da qadın-ana hüquqları Tanrı səviyyəsinə qaldırılır. Ulu Tanrıdan sonra ikinci yaradıcı ana hesab edilir.

Şərq - Azərbaycan qadını bugünkü azad, kişilərlə bərabərhüquqlu dövlət işlərində iştirak etmək, seçki, əmək hüququna malik olmaq, yüksək vəzifələrdə təmsil olunmaq kimi inkişaf və irəliləyiş dövrünə qədər keşməkeşli bir həyat yaşamışdır.

Şərqdə ilk dəfə seçki hüququnu Azərbaycan qadınının qazanması da, əlbəttə ki, asan əldə olunmamışdır. Bu mərd, mübariz Azərbaycan qadınının qələbə əzminin ən bariz ifadəsi olaraq, onun tale yazısı kimi diqqəti cəlb edir.

Qeyd etməliyik ki, hər hansı bir dövrün qadına münasibəti, həmin dövrün dövlət qanunlarından, aid olduğu xalqın dövlət rəhbərinin, onun idarəetmə institutunun qadın siyasətindən asılı olmuşdur və bu gün də real faktlar bunu təsdiq edir və buna söykənir.

Əgər bu və ya digər bir xalqın dövlət strukturu qadın-ana hüququnu öz dövlət-hakimiyyət siyasətində diqqət mərkəzində saxlayırsa, sözsüzdür ki, o öz qanunlar kodeksində, həyata keçirdiyi məqsədyönlü tədbirlərdə qadının hüququnu hər vasitə ilə qoruyacaq və onun hərtərəfli müdafiəsi qayğısına qalacaqdır.

Ulu Öndər Heydər Əliyev qadınlar haqqında müdrik fikir söyləmişdir: "Biz görkəmli şairlərimizdən Məhsəti xanım Gəncəvinin, Xurşidbanu Natəvanın, ictimai xadim Həmidə xanım Məmmədquluzadənin və başqalarının adlarını dərin hörmət hissi ilə çəkirik. Tərəqqi yoluna çıxan qadınlar xalqımızın qızları üçün siniflər və məktəblər, məktəb-dram dərnəkləri təşkil edir, Azərbaycan qadınların mədəniyyətə qovuşdurmağa hər vasitə ilə çalışırdılar. Lakin onlara müyəssər olan şeylər hüquqsuzluq zülmətində işıldaquşların parıltısına bənzəyirdi".

Məlahət Həsənova yazır: "Qadınlarımızın kütləvi olaraq yalnız "ailə" cəmiyyəti çərçivəsində deyil, geniş ictimaiyyətdə öz iradəsini ifadə etməyə başlaması, buna çalışması kimi şərtlənən inqilabi-intibah hadisəsi XX əsrin 20-ci illərindən etibarən genişləndi. Təsadüfi deyil ki, XIX əsr Azərbaycan Maarifçi ədəbiyyatı bu dövrə qədər Azərbaycan qadınının asılı, kölə vəziyyətini özünün geniş və qlobal xarakterli mövzusuna çevirmişdi.

C.Məmmədquluzadənin "Ananın kitabı", "Ölülər", "Dəli yığıncağı" dramlarında, Ə.Haqverdiyev, N.B.Vəzirov və b. əsərlərində, Şərq-Azərbaycan qadınının acınacaqlı vəziyyəti, onun öz hüquqlarının müdafiəsi üçün ən sadə üsulları belə bilməməsi aydın ifadə olunmuşdur.

Görkəmli dramaturqumuz Cəfər Cabbarlının "Sevil", "Almaz", "Oqtay Eloğlu", "Aydın" əsərləri xalqımızın tarixinin bu mərhələsində artıq azadlığın nə demək olduğunu anlayan, öz qadın-ana hüquqlarını dərk edən qadın nəslinin yetişdiyini bədii şəkildə əks etdirir. Bu əsərlərin hər birinin ideya-məzmunu bütün insanlarımıza bəlli olduğundan, onlar üzərində geniş dayanmır. Sevilin, Almazın, Firəngiz və başqalarının timsalında xalqımızın qəhrəman qadınlarının böyük işlər üçün artıq meydanda olduğundan fərəh hissi duyduğumuzu qeyd edirik.

Bütün sahələrdə qadın hüquqlarının müdafiəsi ilə bağlı tədbirlərin keçirilməsi, bir qayda olaraq, ümumi işin əsas hissəsinə çevrilirsə, deməli, ölkə rəhbəri bəşərin həyat nüvəsi, atomun əsas hissəciyi, cəmiyyətin bünövrə daşı olan qadına diqqət və qayğı göstərir. Anaya Vətən demişlər, Vətənə ana. Bir ölkənin qanunlarında bu məntiq, bu dərin məna qırmızı xətlə keçirsə, əlbəttə ki, o ölkə, o xalq, o millət özünü xoşbəxt hesab edə bilər.

Nəhayət, o ölkənin ki, sənətkar-alim qadını, kasıb-yoxsul qadını, qaçqın-köçkün qadını eyni səviyyədə ölkə rəhbərliyinin qayğısı ilə daima əhatələnirsə, hər gün, hər dəqiqə qadın-ana hüquqları haqqında düşünülürsə, əsl həqiqətdə bu ölkənin varlığından, keçmiş və gələcəyindən danışmağa dəyər".

XX əsrin altmışıncı illərinin sonunda Azərbaycanın siyasi rəhbərliyinə irəli sürülən, müxtəlif dövlət vəzifələrində çalışaraq, ciddi təcrübə əldə etmiş Heydər Əlirza oğlu Əliyev fəaliyyətə başladığı ilk vaxtlardan Azərbaycan qadınının azadlığı, onun iqtisadi, siyasi, sosial, mədəni sahələrdə irəli çəkilməsi, həyatının gözəlləşməsi və arzularının reallaşması qayğısına qalmışdır.

Akademik Ramiz Mehdiyev yazır: "Xüsusilə, qeyd edilməlidir ki, onun bugünkü müstəqilliyimizin fundamentini, dayaq nöqtəsini təşkil edən iqtisadi, siyasi, elmi və mənəvi potensialı, məhz 70-80-ci illərdən Heydər Əliyev Cənablarının uzaqgörən siyasəti nəticəsində təşəkkül tapmışdır. Sovet Azərbaycanının əvvəlki və sonrakı rəhbərlərindən fərqli olaraq, Heydər Əliyev bütün həyatı və fəaliyyəti boyu Azərbaycanın müstəqil dövləti haqqında düşünmüş və çalışmışdır. Həmin illərdə əldə olunan bütün nailiyyətlər də, məhz müstəqil dövlətçiliyə xidmətin və uzaqgörənliyin təzahürü idi".

Qadın - Azərbaycan qadını kişilərlə bərabər hüquqlu olmalıdır, onun cəmiyyətin inkişafında rolu genişlənməli, o, ən yüksək kürsülərə irəli çəkilməlidir.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 31 iyul

## 2021-ci ildə "5G" texnologiyasını dəstəkləyən avtomobillər əlçatan olacaq




2021-ci ildə "5G" texnologiyasını dəstəkləyən avtomobillər əlçatan olacaq. İnformasiya texnologiyaları sənayesi artıq "5G" dövrünə keçid mərhələsindədir. İlk beşinci nəsil kommersiya şəbəkələri yaxın vaxtlarda işə salınmalıdır. AZƏRTAC "3dnews.ru" saytına istinadla xəbər verir ki, "Qualcomm" şirkətinin nümayəndəsi bildirir ki, avtomobil sektoru üçün gecikmənin xeyli azalması böyük əhəmiyyət kəsb edir: Bu göstərici 1 ms səviyyəsində olacaq. Müqayisə üçün, adi "4G" şəbəkələrində bu göstərici təxminən 20 ms təşkil edir. Beləliklə, internetə qoşulmuş və sürücüsüz idarə olunan nəqliyyat vasitələri real vaxt rejimində bir-biri ilə və yol infrastrukturu ilə məlumat mübadiləsi edə biləcək. Nəticədə, yeni nəsil nəqliyyat sistemlərinin istifadəyə verilməsi üçün təməl qoyulacaq. ABŞ şirkətinin məlumatına görə, 2021-ci ildə "5G" texnologiyasını dəstəkləyən kommersiyayönümlü avtomobillər əlçatan olacaq.

## Ən kiçik kondisioner yaradılıb



Çin mühəndisləri "Arctic Air" adlı dünyanın ən kiçik kondisionerini yaradıblar. 16x16x17 qabaritə malik yeni qurğu işinin öhdəsindən yaxşı gəlir. AZƏRTAC "life.ru" resursuna istinadla xəbər verir ki, havaötürən və havaçıxaran prinsipi üzrə işləyən kondisioner iki ventilyatora malik olmaqla, isti havanı su filtri vasitəsilə buraxır və soyuq havanı üfürür. Su filtrinin maye tutumu 750 millilitr təşkil edir ki, bu da qurğudan su tam buxarlanıb qurtaranadək 8-9 saat istifadə etməyə imkan verir. Ventilyatorların səsi təxminən 68 desibelə bərabərdir. Bu, ondan yataq otağında istifadəyə şərait yaradır.

Səkkiz yüz qram çəkisi olan portativ kondisioneri istifadəçi özü ilə işə apara bilər. "Arctic Air" kondisioneri həm USB-yə, həm də rozetkaya qoşularaq istifadə olunur.

## Neymardan açıqlama: "Bəzən doğrudan simulyasiya edirəm"



Braziliya millisi və PSJ-nin hücumçusu Neymar tez-tez simulyasiya etdiyinə görə özünə qarşı yönələn tənqidlərə münasibət bildirib. Qol.az-ın xarici KİV-ə istinadən yaydığı xəbərə görə, 26 yaşlı futbolçu hərdən bilərəkdən yerə yıxıldığını etiraf edib: "Siz düşünə bilərsiniz ki, mən simulyasiya edirəm. Hərdən yalandan yerə yıxılıram. Amma həqiqətən meydanda çox əziyyət çəkirəm. Bəzən bütün dünyanı heyətləndirən, bəzən də zəhlətökən oyun üslubunda çıxış edirəm. Fikirləşə bilərsiniz ki, mən tez-tez yıxılıram. Amma belə deyil.

Sanki hərdən özümdən uzaqlaşıram. Bu isə topuq əməliyyatından sonra addım atmaqdan da çətindir. Uzun illər sizin tənqidlərinizi qəbul etmişəm. Aynaya baxıb yeni insan olduğumu görməyimin üstündən xeyli vaxt keçib. Bilin ki, yalnız yıxılanlar sonradan ayağa qalxa bilirlər".

## Ronaldo "Instagram"da hər paylaşımına görə 640 min avro qazanır



İtaliyanın "Yuventus" komandasının futbolçusu Kriştiano Ronaldo "Instagram" hesabındakı hər paylaşımına görə 640 min avro qazanır. Bu barədə Hopper HQ saytı məlumat yayıb. Xəbərdə deyilir ki, 32 yaşlı hücumçu bu göstəriciyə görə dünyada üçüncüdür. Belə ki, o portuqaliyalı forvard model Kayli Cenner (853 min avro) və müğənni Selena Qomesdən (682 min avro) geri qalır.

İlk onluqda Fransa təmsilçisi PSG-nin braziliyalı hücumçusu Neymar (512 min avro) və İspaniyanın "Barselona" komandasının argentinalı kapitanı Lionel Messi də yer alıb (426 min avro). Qeyd edək ki, bir müddət əvvəl "Real Madrid"dən "Yuventus"a 112 milyon avroya transfer olunan Ronaldonun "Instagram"da 137 milyon izləyicisi var.

## "Real"dan Kurtua və Vilyama görə "Çelsi"yə 100 milyonluq təklif



Madridin "Real" klubu belçikalı qapıçı Tibo Kurtua və braziliyalı yarımmüdafiəçi Vilyama görə Londonun "Çelsi" klubuna 100 milyon funt (112 milyon avro) ödəməyə hazırdır. Madrid klubunun rəsmi saytında yer alan xəbərə görə, T.Kurtua "kral klubu"na razılıq verib. Əgər "Çelsi" klubu avqustun 9-na kimi (transfer pəncərəsinin bağlanma günü) Tibo Kurtua üçün əvəzləyici tapsa qapıçı "Real" klubuna transfer oluna bilər.

T.Kurtua 2014-cü ildən "Çelsi" klubunun şərəfini qoruyur. O, London klubunun heyətində 126 oyun çıxıb, 71 oyunda qapısını toxunulmaz saxlayıb. Vilyam 2013-cü ildən "Çelsi" klubunun formasını geyinir. Keçən mövsüm İngiltərə Premyer Liqasında 55 oyun start heyətdə meydana çıxan braziliyalı 13 dəfə fərqlənib və 8 dəfə məhsuldar ötürmə ilə yadda qalıb. Qeyd edək ki, Rusiyada keçirilən dünya çempionatında Tibo mundialın ən yaxşı qapıçısı "Qızıl əlcək" mükafatı alıb. Vilyamın komandası Braziliya millisi isə dörddəbir final mərhələsində Belçikaya məğlub olaraq turnirdə mübarizəsini dayandırıb.

## Ağır atletika üzrə Azərbaycan yığması Avropa birinciliyinin qalibi olub



İyulun 22-29-da İtaliyanın Milan şəhərində 15 və 17 yaşadək yeniyetmə oğlan və qızlar arasında ağır atletika üzrə Avropa birinciliyi keçirilib. AZƏRTAC xəbər verir ki, 40-dək ölkədən 300-dən çox atletin iştirak etdiyi turnirdə Azərbaycan yığmasının üzvləri də körpücük üzərinə çıxıblar. Onlar tarixi uğura imza ataraq komanda hesabında Avropa birinciliyinin qalibi adına layiq görülüblər. Yeniyetmələrdən ibarət yığma komandamız toplamda 4 qızıl, 1 gümüş və 2 bürünc, ümumilikdə isə ayrı-ayrılıqda birdən və təkanla qaldırma hərəkətləri, həmçinin toplamdakı medallar nəzərə alınmaqla 22 medal qazanıb. Bu göstəricidə Azərbaycan 25 medal qazanan Türkiyə yığmasından sonra ikinci olub. 17 yaşadək olan qız ağır atletlərimiz 115 xalla 12-ci, oğlan ağır atletlərimiz isə 471 xalla (4 qızıl, 3 gümüş və 3 bürünc medal) dördüncü yerə çıxıblar. 15 yaşadək olan qız ağır atletlərimiz Avropa birinciliyinə 44, 48, 53, 58, 63, 69 kiloqramda cəmi yeddi nəfərlə qatılıblar. Toplam 409 xal toplayan qızlardan ibarət yığmamız komanda hesabında Avropada üçüncü yeri tutmağı bacarıb. Millimiz yalnız İtaliya və Türkiyədən geri qalıb.

15 yaşadək olan yeniyetmə oğlan ağır atletlərdə isə yığmamız 50, 56, 62, 77 və 94 kiloqram çəki dərəcələrində cəmi səkkiz nəfərlə təmsil olunub. 6 qızıl, 4 gümüş və 3 bürünc medal qazanan yığmamız bu nəticə ilə medal hesabında Avropanın ikinci ən güclü komandası olub. Medallarla yanaşı, atletlərimiz milli komandanın aktivinə xallar da yazdırıblar. Nəticədə yığmamızın üzvləri cəmi 550 xal toplayıblar. Bunun sayəsində Azərbaycan yığması Bolqarıstan və Türkiyə millilərini arxada qoyaraq komanda hesabında Avropa birinciliyinin qalibi adına layiq görülüb.

## Məşhur futbolçu karyerasını bitirdi




"Çelsi" və "Real"ın sabiq futbolçusu Maykl Esyen karyerasını başa vurub. Qana millisinin yarımmüdafiəçisi 35 yaşında futbolla vidalaşıb. Qeyd edək ki, Esyen 2012-ci ildə "Çelsi" ilə Çempionlar Liqasını qazanıb. Son mövsümü İndoneziyanın "Persib" komandasında keçirən futbolçu "Lion", "Milan" və "Panatinaikos" klublarında da çıxış edib.

Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500